# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 aprel 2026-cı il, çərşənbə
№ 068 (7135)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə sadiq ölkə



## Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir

Bax səh. 2

## Bir əsrlik dil və kimlik

Bax səh. 5

## Milli Məclisin iclasında... Hesablama Palatasının illik fəaliyyəti haqqında hesabat təqdim edilib

Aprelin 21-də Milli Məclisin növbəti iclası keçirilib. Gündəliyə 8 məsələnin müzakirəsi daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin aprelin 14-dən 17-dək Türkiyənin İstanbul şəhərində işgüzar səfəri barədə məlumat verib. Onun sözlərinə görə, səfərdə məqsəd Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək idi. Keçirilən tədbirlərdən danışan S.Qafarova səfərin uğurlu olduğunu söyləyib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Deputatlar Tural Gəncəliyev, Zaur Şükürov, Elçin Mirzəbəyli, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Elman Nəsirov və digərləri aktual mövzulardan bəhs ediblər...

Bax səh. 2




## Anadoludan dünyaya: inkişaf üçün sülh zərurəti...

Bax səh. 3

## Yeni iqtisadi dövrün aktual çağırışı

Aprelin 20-də İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib. Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində aqrar sahənin dayanıqlı inkişafı, o cümlədən mövcud vəziyyət və inkişaf perspektivləri, kənd təsərrüfatında istehsalın artırılması, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar ticarətin və ixracın genişləndirilməsi, regionlarda məşğulluğun qorunması və digər cari məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələ üzrə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun geniş məruzəsi dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər. İclasın yekununda aqrar sahənin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

2025-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 14 milyard 189,5 milyon manat təşkil edib. Bu, 2024-cü illə müqayisədə 0,9 faiz çoxdur. Ötən il ölkədə bitki-

Bax səh. 4

## İnvestisiya şirkətləri risklərdən qorunacaq

Bax səh. 5

### Siyasi təxribat...

Bax səh. 5

### Bir əsrlik dil və kimlik

Bax səh. 5

### Keçmiş prezident seçkilərdə qalib gəldi...

Bax səh. 7

### Vicdan əzab verərmi?

Bax səh. 7



## Fransada hakimiyyət savaşı başladı...

Bax səh. 6

## Macarıstan geri çəkilmədi...




Bax səh. 6

# Dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə sadiq ölkə



## Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir

Azərbaycanın mühüm beynəlxalq platformaların fəaliyyətində rolu artmaqdadır. Ölkəmiz özünün geniş imkanlarını təqdim etməklə üzv olduğu beynəlxalq təşkilatların fəaliyyətinin səmərəliliyinin artmasına davamlı töhfələr verir ki, bu da bütün dünyada təqdirlə qarşılanaraq Azərbaycana inamı artırır. BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (BMT ASİSK) 82-ci sessiyasının ölkəmizin sədrliyi ilə keçirilməsi bunun daha bir təzahürüdür.

BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Prezident İlham Əliyev BMT ASİSK-ın 82-ci sessiyasının iştirakçılarına ünvanladığı müraciətində ölkəmizin müsbət reallıqlarına, beynəlxalq səviyyədə artan roluna diqqət çəkərək bildirib ki, biz xüsusən də multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq.

**Cənubi Qafqazda dərin transformasiyalar - qalib Azərbaycanın yaratdığı reallıqlar**

Hazırda dünya son dərəcə çətin bir dönəmdən keçir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev bəhs olunan müraciətində Azərbaycanın sədrliyi ilə keçirilən BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının artan qlobal qeyri-müəyyənlik dövründə baş tutduğuna xüsusi diqqət çəkib. Bu gün beynəlxalq birlik sözün əsl mənasında multikulturalizm, dözümsüzlük böhranı yaşayır. Milli-dini-irqi ayrı-seçkiçilik, ksenofobiya kimi arzuolunmaz təzahürlərin əhatə dairəsi genişlənir, şiddət artır. Sanki bəşəriyyət geridönüş edir. Diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, qeyd olunan mənfi təzahürlər xüsusilə də yüksək inkişaf səviyyəsinə çatmış Qərb cəmiyyətlərində daha kəskin formada özünü göstərir. Bu gün Avropanın əksər ölkələrində sağçıların, millətçilərin fəallığının artmasının və siyasi elitalarda mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdiklərinin şahidi oluruq. Baş verənlərin nəticəsində də son illərdə ayrı-ayrı Avropa ölkələrində xüsusilə də İslam etiqadının daşıyıcılarına, miqrantlara qarşı dözümsüzlük bir növ həyat normasına çevrilməkdədir.

Eyni zamanda, hazırda dünya şiddətli müharibələrə səhnədir. Şərqi Avropada Rusiya-Ukrayna müharibəsi beşinci ildir ki, davam edir və hələ də sonu görünmür. Qəzzada baş verən son qətliamda insanlıq faciəsi yaşandı, 70 mindən çox insan həyatını itirdi. Sağ qalan insanlar hələ də humanitar fəlakət içindədirlər, onların ərzaq məhsullarına, dərman vasitələrinə və səhiyyə xidmətlərinə əlçatanlığı çox aşağı səviyyədədir. Qəzza qətliamının ardınca başlayan İran-ABŞ-İsrail müharibəsi isə öz miqyasına görə daha genişdir. Hazırda müharibənin tərkib hissəsi olaraq Hörmüz boğazında yaranan gərginlikdən bütün beynəlxalq birlik təsirlənir. Müharibədən əvvəl dünya üzrə neft-qaz ticarətinin təxminən 20 faizi bu dar keçid vasitəsi ilə reallaşırdı. İndi  Hörmüz boğazının blokadaya alınması qlobal təchizat zəncirini pozub ki, bunun da mənfi təzahürləri Avropa və Asiya bazarlarında özünü kritik şəkildə göstərir. “Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda Azərbaycan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır”, - deyə Prezident İlham Əliyev müraciətində bildirib.

Yeri gəlmişkən, son illərdə qalib Azərbaycanın yaratdığı reallıqların məntiqi nəticəsi kimi Cənubi Qafqazda müşahidə edilən transformasiyalar bütün dünya üçün nümunə kimi qəbul edilə bilər. Cənubi Qafqaz da təxminən otuz il ərzində müharibə riskləri ilə üz-üzə qalıb. Azərbaycan 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında şanlı zəfərlərə imza atmaqla sırf öz gücü ilə ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail oldu. Ölkəmiz müharibədən dərhal sonra isə sülh təşəbbüsünü irəli sürdü, Ermənistanla sülh gündəliyinə başladı və qətiyyətli səylər göstərməklə onu irəli apardı. “Ötən ilin avqustunda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın ev sahibliyi ilə keçirilmiş Vaşinqton Zirvə görüşündə Azərbaycan ilə Ermənistan arasında normallaşmada tarixi irəliləyiş əldə olunmuşdur”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Normallaşma prosesi çərçivəsində bu gün artıq sülhün bəhrəsi ortadadır. Qeyd olunduğu kimi, Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətləri başlamışdır və hazırda Azərbaycan Ermənistan üçün tranzit çıxışına şərait yaradır. Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulmasına töhfə verir.

**Azərbaycanın unikal təcrübəsi - Böyük Qayıdış Proqramı uğurla icra olunur**

Qalib Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə postmüharibə dövründə həyata keçirdiyi unikal və genişmiqyaslı qururculuq-bərpa işləri, məskunlaşdırma da dünya üçün müsbət təcrübə kimi qəbul edilə  bilər. Azərbaycan azsaylı ölkələrdəndir ki, işğal illərində dağıdılmış şəhər və kəndlərin bərpasına müharibə başa çatdıqdan dərhal sonra start verib. Dövlətimizin başçısının vurğuladığı kimi, Böyük Qayıdış Proqramı uğurla icra olunur. 80 mindən artıq insan öz həyatını yenidən qurmaq, doğma yurdlarına qovuşmaq, təhsil almaq və işləmək məqsədilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıtmışlar.

Əlbəttə, bu prosesi ləngidən problemlər də yox deyil. Xüsusilə də minalar humanitar və inkişaf sahələrində ciddi təhdid olaraq qalır. Xatırladaq ki, 2020-ci ildə münaqişə başa çatdıqdan sonra 400-dən artıq azərbaycanlı mülki şəxs mina partlayışları nəticəsində həyatını itirmiş və ya yaralanmışdır.

**BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi**

Eyni zamanda, Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir. Aparılan islahatların nəticəsi olaraq milli iqtisadiyyat getdikccə böyüyür və sosial sferaya daha böyük həcmlərdə maliyyə yönəltmək imkanları yaranır. Son 7 ildə ardıcıl olaraq icra olunan 5 sosial islahat paketi də bunu əyani şəkildə təsdiqləyir. Qeyd edilən sosial islahat paketləri əməkhaqqı, pensiya və digər sosial ödənişlərdə ciddi artımlara, o cümlədən minimum əməkhaqqında 3,1 dəfə, orta aylıq əməkhaqqında 2 dəfə, minimum pensiyada 3 dəfəyə yaxın, orta aylıq pensiyada 2,6 dəfə, sosial müavinət, təqaüd ödənişləri üçün ayrılan illik vəsaitdə 5 dəfə, ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləğində 2,4 dəfə artıma  imkan verib. Son iki onillik ərzində iqtisadiyyatımız təxminən dörd dəfə artıb, yoxsulluq və işsizlik isə təqribən 5 faiz səviyyəsinə düşüb. “Azərbaycan BMT-nin 2030-cu il Gündəliyini milli inkişaf strategiyalarına daxil edərək, yoxsulluğun azaldılması, təhsil və səhiyyə sahələrində nailiyyətlər qazanaraq, “heç kəsi diqqətdən kənarda qoymamaq” prinsipinə qəti şəkildə sadiq çıxdığımızı əks etdirən könüllü milli hesabatlarını dövri olaraq təqdim edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmişdir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*



### Milli Məclisin iclasında...

# Hesablama Palatasının illik fəaliyyəti haqqında hesabat təqdim edilib

*Nardar BAYRAMLI*

Aprelin 21-də Milli Məclisin növbəti iclası keçirilib. Gündəliyə 8 məsələnin müzakirəsi daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin aprelin 14-dən 17-dək Türkiyənin İstanbul şəhərində işgüzar səfəri barədə məlumat verib. Onun sözlərinə görə, səfərdə məqsəd Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək idi. Keçirilən tədbirlərdən danışan S.Qafarova səfərin uğurlu olduğunu söyləyib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Deputatlar Tural Gəncəliyev, Zaur Şükürov, Elçin Mirzəbəyli, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Elman Nəsirov və digərləri aktual mövzulardan bəhs ediblər.

Daha sonra iclasın gündəliyində olan məsələlər müzakirə olunub. Əvvəlcə Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabat təqdim edilib. Hesabatı təqdim edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2025-ci ildə audit və analitik fəaliyyət formasında 48 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərar qəbul olunub, bunlardan 1-nin nəticələrinin rəsmiləşdirilməsi növbəti ilə keçirilib: “Audit portfelinin kəmiyyət göstəricilərində əsasən stabilliyin saxlanmasına hədəflənsək də, portfelin keyfiyyət göstəricilərinin yüksəldilməsinə yönəlik tədbirlər həyata keçirmişik. Bu, həm auditlərin əhatə etdiyi mövzuların müxtəlifliyində və aktuallığında, həm də ilk dəfə audit və ya analitik fəaliyyətlə əhatə olunan qurumların sayında özünü göstərib. Qeyd edim ki, portfelin 47,9 faizində audit və ya analitik fəaliyyət ilk dəfə və ya fərqli mövzu üzərindən olmaqla keçirilib. Beynəlxalq standartların tələblərindən irəli gələrək hesabat ilində tətbiqinə başladığımız yeni keyfiyyətin idarə edilməsi sistemi də auditin planlaşdırılması, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi mərhələlərinin peşəkar baxışdan keçirilməsini təmin etməklə audit keyfiyyətinin yüksəldilməsinə töhfə verib”.

V. Gülməmmədov qeyd edib ki, auditlərin əhatə dairəsinin əsas hissəsini icmal büdcənin müxtəlif elementləri təşkil edib. Müxtəlif illər üzrə dövlət büdcəsinin 6,7 milyard manatı, 2023-cü il üzrə Dövlət Neft Fondunun, 2023-2024-cü illər üzrə İcbari Tibbi Sığorta Fondunun büdcələri tam şəkildə, 2023-2025-ci illər üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin 101,3 milyon manatı, eləcə də qeyri-büdcə vəsaitlərindən 130,1 milyon manat dövlət auditi ilə əhatə edilib. 2025-ci ilin iş planının tərtibi zamanı müvafiq icra hakimiyyəti orqanının təklifləri, Milli Məclisin deputatları tərəfindən səsləndirilən fikirlər, COP29, mediada işıqlandırılan məlumatlar, rəsmi internet səhifəmizdəki “Audit təklif et” bölməsi vasitəsilə daxil olmuş vətəndaş müraciətləri və digər məsələlər diqqətdə saxlanılıb. Auditlər işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərinə, müxtəlif (təhsil, gənclər və idman, səhiyyə, kənd təsərrüfatı, ekologiya və s.) sahələr üzrə aktual mövzulara, o cümlədən ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə fokuslanıb. Hesabat dövründə 3 audit məxfilik rejimində keçirilib. 2025-ci ilin iş planına əsasən 5 analitik fəaliyyət və səmərəlilik, maliyyə, uyğunluq auditi şəklində olmaqla 43 audit keçirilib. 6 auditdə informasiya sistemlərinin auditinin bəzi elementlərindən istifadə olunub. “2025-ci ilin iş planına uyğun keçirilən 36 audit və analitik fəaliyyət zamanı büdcə vəsaitlərinin idarə edilməsində nöqsanlar aşkar edilib”, - deyən V.Gülməmmədov əlavə edib ki, bu nöqsanlar gəlir və xərclərin proqnozlaşdırılması, vəsaitlərin idarə edilməsi və icrası, əməyin ödənişi və xərc normativlərinə, prosedurlara əməl olunmaması ilə bağlıdır. “Yuxarıda qeyd etdiyim nöqsan göstərir ki, dövlət vəsaitlərinin planlaşdırılması və icrası prosesinin müxtəlif mərhələlərində nöqsanlar müşahidə edilir. Proqnozlaşdırma prosesinə təşkilatların lazımi diqqət göstərməməsi vəsaitlərin icra faizinin aşağı olmasına, vəsaitlərinin təyinatının icra prosesində dəyişdirilməsinə və bəzi hallarda kassa icrası göstəricilərinin təhrif olunmasına səbəb olur. Bununla belə bir müsbət məqamı da müşahidə edirik və biz bunu əvvəlki hesabat və rəylərdə xüsusi vurğulayırdıq, bu xəzinədənkənar qalıqların azalmasıdır”, - deyə Hesablama Palatasının sədri əlavə edib.

V.Gülməmmədov deyib ki, ümumi nöqsanın 40,3 faizi və ya 626,3 milyon manatı maliyyə təhriflərindən ibarətdir: “Aşkarlanan maliyyə təhriflərini iki istiqamətdə qruplaşdırmışıq. Əhəmiyyətli təhriflər qrupuna maliyyə hesabatlılığında məlumatların əks etdirilməməsi kimi təhriflər aid olunub ki, bu təhriflər üzrə məbləğ 481,3 milyon manat təşkil edib. Cəmi təhriflərin 145 milyon manatı isə digər təhriflərdən ibarət olub. Təhrif məbləğində gəlir və ya xərcin vaxtında və doğru tanınmaması yüksək pay ilə fərqlənib.

Nəhayət, ümumi nöqsanın 22,1 faizi və ya 342,9 milyon manatı isə səmərəsiz xərclərdən ibarət olub.Səmərəsiz xərclər əsasən mal, avadanlıq və obyektin istifadəsiz qalması və ya digər tərəfin istifadəsinə verilməsi, qənaət imkanlarından istifadə edilməməsi, hüquqi aktlarla qurumun fəaliyyət istiqamətlərinə aid edildiyi və özü tərəfindən həyata keçirilməli olduğu halda müvafiq fəaliyyətin icra edilməsi üçün satınalmanın keçirilməsi və s. ilə bağlıdır. Keçirilmiş audit və analitik fəaliyyətlər strateji planlaşdırma institutunun formalaşması fonunda nəticəyönümlü idarəetmə prinsiplərinin tətbiqi, plan-büdcə inteqrasiyası və təsir səviyyəsində qiymətləndirmə mexanizmlərinin funksionallığının tam təmin edilmədiyini göstərib. Hesabat dövründə keçirilmiş auditlərdə bir neçə dövlət proqramının icrası vəziyyəti ilə bağlı məqamlara da baxılıb. Müəyyən edilib ki, bir sıra dövlət qurumları öz əsasnamələri ilə müəyyən edilən vəzifələri dövlət proqramının tədbirlər planına daxil edib. Tədbirlər müəyyən edilən zaman çərçivəsində və ya ümumiyyətlə icra edilməyib, bəzi hallarda isə aşağı keyfiyyətlə icra edilib, proqramın icrasında gecikmələrə yol verilib”.

Diqqətə çatdırılıb ki, 2025-ci ildə ümumilikdə 110,1 milyon manat dövlət vəsaitinin bərpası təmin edilib, bundan əlavə, pre-auditlər zamanı əhəmiyyətli məbləğdə artıq xərclərin qarşısı alınıb, müqavilələrin azaldılması təmin olunub.

Müzakirələrdən sonra Hesablama Palatasının illik hesabatı qəbul olunub.

Qeyd edək ki, millət vəkilləri iclasın gündəliyində olan digər məsələləri də qəbul ediblər.

# Anadoludan dünyaya: inkişaf üçün sülh zərurəti...

## "Bölünmüş dünyada diplomatiyanı qəbul etmək": Bakı-Ankara müttəfiqliyi yeni regional güc birliyi nümunəsidir

XXI əsr özü ilə birgə yeni çağırışlar gətirib. Günümüzdə əsas prioritet gerçəklikləri qəbul etmək, çoxşaxəli əlaqələri yeni standartlar üzərindən müəyyənləşdirməkdir. Xüsusilə, son 10 ildə qlobal dünyada baş verənlər, artan kataklizmlər, münasibətlər sisteminin yenidən "refreş" olunması, iqtisadi güc balansının dəyişməsi, keçmiş ticari nizamın yenilənməsi, siyasi münasibətlər sistemində hüquq və güc kateqoriyalarının üzüzə dayanması mühüm dilemmalar yaradıb. Bu dilemmalardan çıxış yolu isə birdir: sülh və sabitlik uğrunda birlik nümayiş etdirmək. Regional imkanların gerçəkliyə çevrilməsi üçün bu birliklər, müzakirələr, birgə çıxış yollarının tapılması üsulları olduqca vacibdir.




Anadolunun qəlbində yerləşən və qlobal diplomatiyanın mühüm platformalarından birinə çevrilən Antalya Diplomatiya Forumu da müasir dünyanın ən aktual çağırışlarının müzakirəsinə imkan yaratdı. Sayca beşinci olan budəfəki forum mühüm özəllikləri ilə yadda qaldı:

- Forum siyasi dialoqun gücləndirilməsi imkanlarını ortaya qoydu;
- Forum yeni iqtisadi gələcək üçün transformasiyaların sərhədlərini bir daha xatırlatdı;
- Forum qlobal inkişafın regional bağlantılara, işbirliklərinə ehtiyacını təsdiqlədi;
- Forum dövlətlər, beynəlxalq təşkilatlar və ekspertlər arasında etimad mühitinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıdı
- Nəhayət, ən əsası forum inkişaf üçün sülhün, sabitliyin ən zəruri şərt olduğunu növbəti dəfə təsdiqlədi.

**Ədalətli mövqe və sülh gündəliyinə sadiqlik...**

Müasir reallıqlar, siyasi-iqtisadi konfiqurasiyalar coğrafi anlamda da regional mahiyyətə böyük təsir göstərib. O baxımdan ki, günümüzdə regional sülh və ya inkişaf predmeti yalnız kiçik ərazilərlə məhdudlaşmır: misal üçün, Azərbaycanın 2020-ci ildə formalaşdırdığı yeni siyasi-iqtisadi konfiqurasiya Avrasiyanın mərkəzində yeni bir iqtisadi-ticari "region" formalaşdırdı. Mərkəzi Asiya, Cənubi Qafqaz və Kiçik Asiyanı özündə birləşdirən bu regional mahiyyət yeni nizamda bütün qlobal proseslərdə vahid orqanizm kimi çıxış edir. İstər qlobal ticari imkanların genişləndirilməsi (Orta Dəhlizin Zəngəzur xətti), istər siyasi mövqelərin yaxınlaşdırılması (Şuşa Bəyannaməsi və Türk Dövlətləri Təşkilatı), istərsə də qlobal proseslərə vahid baxışın sərgilənməsi (münaqişələrdə, qarşıdurmalarda, hətta müharibələrdə belə tərəf olmadan sülh üçün vasitəçi rolu üstlənmək) bu regional birliyi daha da möhkəmləndirir. Bakı-Ankara strateji müttəfiqliyi isə bu tabloda bir addım daha ön plandadır.

Hər iki dövlət regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş ardıcıl siyasət həyata keçirir. Türkiyənin diplomatik fəallığı, vasitəçilik təşəbbüsləri və çoxtərəfli platformalara verdiyi töhfə ilə yanaşı, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyi və sülh gündəliyinə sadiqliyi diqqət çəkir. Həm Azərbaycan, həm də Türkiyə qlobal sülh missiyasını uğurla yerinə yetirir:

- Bakı Cənubi Qafqazda sabitliyin təminində dominant iştirakçı oldu, Qəzza ilə bağlı yaradılan Sülh Şurasında ən aktiv təmsilçilərdən birinə çevrildi;
- Ankara isə Rusiya-Ukrayna müharibəsinin ən mühüm mərhələsində "Taxıl sazişi"nin imzalanmasına nail oldu, bu gün İran-ABŞ danışıqları üçün vasitəçi rolda çıxış edir.

Azərbaycan-Türkiyə tərəfdaşlığı bu baxımdan nümunəvi model kimi çıxış edir. İki qardaş ölkənin ortaq strateji baxışı yalnız region üçün deyil, daha geniş coğrafiyada sabitliyin təmin olunmasına xidmət edir. Onların birgə səyləri göstərir ki, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan münasibətlər qlobal miqyasda sülhün möhkəmləndirilməsində mühüm rol oynaya bilər. Antalya Diplomatiya Forumu da sülhün yalnız siyasi məqsəd deyil, həm də inkişafın əsas şərti olduğunu bir daha ön plana çıxarır. Anadoludan dünyaya uzanan bu mesaj, müasir beynəlxalq münasibətlər sistemində sülhün alternativsiz olduğunu açıq şəkildə nümayiş etdirir.

**155 ölkədən 6 min qonaq...**

Beləliklə, tarix boyu sivilizasiyaların qovşağı olan Cənubi Qafqaz - Anadolu coğrafiyası bu gün də dialoq, əməkdaşlıq və qarşılıqlı anlaşma ideyalarının yayılmasında körpü rolunu oynayır. Vurğulayaq ki, forumda 155 ölkədən 21 dövlət və hökumət başçısı, eləcə də 64 nazir daxil olmaqla 6000-dən çox insan iştirak edib. Forum çərçivəsində irəli sürülən təşəbbüslər və aparılan müzakirələr göstərir ki, davamlı inkişaf yalnız sabitlik və sülh şəraitində mümkündür. Forumun dünyaya çağırışında bu konseptual komponentlər aparıcı rol aldı. Prezident Rəcəb Tayyib Ərdoğanın açılış nitqi ilə işə başlayan forumun əsas şüarı "Bölünmüş dünyada diplomatiyanı qəbul etmək" mövzusu idi. Prezident Ərdoğan ilk fikirlərində forumun ideya istiqamətini açıqladı: Biz diplomatiyanın qütbləşmə ilə deyil, ortaq mövqe, barışıq ilə reallaşacağını düşünürük. Biz bölgəmizdəki əzabları yüngülləşdirmək üçün diplomatiyanın gücünü vurğuladıq."

Prezident Ərdoğan çıxışında qonşu ölkələrlə yaxşı münasibətlər quraraq Türkiyə ətrafında "sülh və təhlükəsizlik zonası" yaratmağa çalışdıqlarını bildirdi. Qlobal iqtisadi inkişafla bağlı isə Ərdoğan dedi: "Gömrük tarifləri üzərində artan ticarət rəqabətinin dağıdıcı hala gəlməsinin qarşısını almaq üçün əlimizdən gələni edirik - Türkiyə bu prosesin qəliblərindən biri olacaq".

**Qəzzada sülh missiyası...**

Forumun prioritetlərindən, qlobal sülh çağırışlarından bəhs edərkən önə çıxan məsələlərə də diqqət çəkmək lazımdır:

- Yaxın Şərqdə baş verən münaqişələr;
- Suriyanın bərpası və stabilliyi;
- Cənubi Qafqazda sülh və yeni münasibətlər sistemi.

Mətbuat konfransındakı çıxışında Türkiyənin xarici işlər naziri Hakan Fidan bu məsələlərə diqqət çəkərək problemlərin diplomatik yolla aradan qaldırılması imkanlarından danışdı - əslində forumun ən mühüm hədəflərindən biri də məhz budur: sülhə və sabitliyə diplomatiya ilə nail olmaq...

Məsələn, Fidan Qəzzadakı vəziyyətlə bağlı fikirlərini bölüşərkən bildirdi ki, "Beynəlxalq ictimaiyyət olaraq biz bir araya gəlmişik. Qəzza Sülh Planını həyata keçirmək və gerçəkləşdirmək üçün gərgin səylər göstəririk. Prezidentimiz Rəcəb Tayyib Ərdoğan son bir ildir ki, cənab Tramp və regional liderlərlə intensiv danışıqlar prosesi aparır".

Rəsmi Bakı da bu istiqamətdə mühüm addımları ilə seçilib. Qəzza Sülh Şurasının üzvü olan Azərbaycan qlobal sülh missiyada mühüm yer alır. Ümumiyyətlə, Azərbaycanın Yaxın Şərqdə sülhün bərpası ilə bağlı olduqca vacib addımları var. İstər Suriya ilə bağlı, istərsə də digər istiqamətlərdə danışıqların aparılması üçün vasitəçi missiya rolunu üstlənən Azərbaycan yeni mərhələdə aktiv bir oyunçu kimi proseslərdə iştirakçı olub. İndiki mərhələdə isə missiya davam edir - Bakı bölgədə inkişafın əldə olunması üçün zəruri olan sülhün bərqərar olmasına töhfə verməyə hazırdır.

**Qlobal Cənubun inkişafı üçün...**

Fidan Türkiyənin Afrikada və digər bölgələrdə baş verən münaqişələrdə də vasitəçilik rolunu oynamağa çalışdığını bildirərək, "Münaqişələrə son qoymağa və xüsusilə terrorizmə qarşı mübarizədə milli dövlətlərə təhlükəsizlik problemləri ilə bağlı dəstək verməyə yönəlmiş bir strategiyamız var. İqtisadi, kommersiya, inkişaf və texniki əməkdaşlıq artıq mövcuddur. Lakin strateji olaraq, xüsusilə də bu iki qeyri-sabitlik mənbəyi olan münaqişələrin söndürülməsi və terrorizmlə mübarizə üzərində işləyirik" dedi.

Yeni dövrdə ən ümdə məsələlərdən biri məhz Qlobal Cənubun inkişaf tendensiyasıdır. Türkiyənin strateji müttəfiqi olan Azərbaycan da Qlobal Cənubun problemlərini anlayan, onların müdafiəsinə qalxan və praktiki həll yolları təklif edən dövlət kimi beynəlxalq münasibətlərdə artan çəkisini göstərməkdədir. Azərbaycanın apardığı siyasət bir daha sübut edir ki, Bakı ədalətə, suverenliyə, dayanıqlı inkişafa və qlobal həmrəyliyə əsaslanan yeni dünya düzənində söz sahibi olan liderlərdən birinə çevrilib.

Azərbaycanın Qlobal Cənubun liderlərindən birinə çevrilmə prosesində ən diqqətçəkən məqamlardan biri rəsmi Bakının Afrika və kolonializmdən əziyyət çəkən ölkələr ilə qarşılıqlı münasibətlərinin inkişafıdır. Bu, bir reallıqdır ki, əsrlərlə kolonializm və istismar siyasətindən əziyyət çəkmiş ölkələr indi beynəlxalq sistemdə bərabərlik, ədalət və tərəfdaşlıq axtarırlar - belə bir geosiyasi konfiqurasiyada Azərbaycan balanslı, müstəqil və suveren mövqeyi ilə bu ölkələrin etimadını qazanır və Qlobal Cənubda da etibarlı tərəfdaş kimi şöhrət tapır.

Eyni zamanda, Azərbaycan Qlobal Cənub ilə mühüm enerji dialoqu aparır. Ölkəmiz bərpaolunan enerji sahəsində də əməkdaşlıq qapılarını Qlobal Cənub ölkələrinə açır. Ümumiyyətlə, yeni dövrdə enerji sadəcə iqtisadi güc deyil, siyasi təsir və geosiyasi mövqe deməkdir. Azərbaycan isə məhz bu müstəvidə həyata keçirdiyi uzaqgörən enerji siyasəti ilə həm öz milli maraqlarını təmin edir, həm də dünyanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu siyasət Azərbaycanın Qlobal Cənubda artan nüfuzunun və lider mövqeyinin əsas sütunlarından birinə çevirilib.

**Türkiyə Azərbaycanın yanındadır...**

Antalya Diplomatiya Forumunun ən diqqətçəkən məqamlarından biri platformada Bakı-İrəvan münasibətlərinin sülh yolu nizamlanmasına münasibət idi. XİN başçısı Hakan Fidan da Azərbaycan-Ermənistan məsələsini vurğulayaraq bildirib ki, "ümid edirəm ki, bu müqavilə həyata keçiriləcək və indiyə qədər göstərilən səylərin tamamlanmasını görəcəyik".

Fidan deyib ki, artıq münaqişənin olmamasının, sülhün və bunun bölgəyə gətirdiyi faydaların təsirini görürük: "Yekun razılaşma ilə ölkələr arasında normallaşmanın, Türkiyə ilə Ermənistan arasında normallaşmanın və Azərbaycanla Ermənistan arasında normallaşmanın bölgədə əlaqə, eləcə də iqtisadi, ticarət və enerji təhlükəsizliyi baxımından çox əhəmiyyətli nəticələr verəcəyini gözləyirik."

Fidan Zəngəzur dəhlizinin (TRIPP) Türkiyənin regiondakı əlaqəsini gücləndirmək üçün vacib olduğunu bildirib və əlavə edib: "Bu baxımdan əlaqə layihələri üzərində Avropa İttifaqı ilə sıx əməkdaşlıq edirik. Sülh müqaviləsi imzalandıqdan sonra bölgə ölkələri üçün həm əlaqə, həm də iqtisadi inkişaf baxımından böyük müsbət inkişaf görəcəksiniz. Biz buna çox yaxınıq".

Fidan ötən il ABŞ-da Azərbaycan və Ermənistan arasında keçirilən görüşə toxunaraq yekun sülh müqaviləsinin imzalanması üçün hələ bir neçə addımın atılmasının vacib olduğunu bildirib. O, dünya ictimaiyyətinin iki ölkə arasında sülh üçün inanılmaz rəğbətinə və dəstəyinə diqqət çəkərək, Türkiyənin həmişə Azərbaycanın yanında olmağa davam edəcəyini və bunun ortaq bir tale olduğunu bildirib.

H.Fidan, Azərbaycan və Ermənistan arasında sülh nəticəsində bölgənin daha sabit olacağına inandıqlarını vurğulayaraq, "Bu, bölgənin bütün xalqları üçün son dərəcə vacibdir" deyib.

*Pərviz SADAYOĞLU*

# Yeni iqtisadi dövrün aktual çağırışı

## Kənd təsərrüfatında istehsalın artırılması strateji məqsədlərdən biridir

Aprelin 20-də İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib. Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində aqrar sahənin dayanıqlı inkişafı, o cümlədən mövcud vəziyyət və inkişaf perspektivləri, kənd təsərrüfatında istehsalın artırılması, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar ticarətin və ixracın genişləndirilməsi, regionlarda məşğulluğun qorunması və digər cari məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələ üzrə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun geniş məruzəsi dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər. İclasın yekununda aqrar sahənin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**İstehsal 14 milyard manat...**

2025-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 14 milyard 189,5 milyon manat təşkil edib. Bu, 2024-cü illə müqayisədə 0,9 faiz çoxdur. Ötən il ölkədə bitkiçilik məhsullarının dəyəri 6 milyard 748,5 milyon manatla əvvəlki ilə nisbətən 1,5 faiz, heyvandarlıq məhsullarının dəyəri isə 7 milyard 441 milyon manat və ya 0,3 faiz artıb. Ötən il taxıl istehsalının həcmi 3,3 milyon ton, tərəvəz məhsulları 1,8 milyon ton, meyvə və giləmeyvə 1,4 milyon ton, kartof 924 min ton, bostan məhsulları 459 min ton, pambıq 363 min ton, şəkər çuğunduru 328,5 min ton, üzüm 210 min ton, günəbaxan 31,8 min ton, tütün 4 min ton, çay 1,2 min ton təşkil edib. Habelə 2025-ci ildə ölkədə diri çəkidə 659,2 min ton ət, 2 milyon 305,9 min ton süd, 2 milyon 342,9 milyon ədəd yumurta, 14,6 min ton yun və 186,6 ton barama istehsal olunub. Əvvəlki illə müqayisədə yumurta istehsalı 1,8 faiz, süd istehsalı 0,3 faiz artıb, ət istehsalı sabit qalıb, yun istehsalı isə 1,3 faiz azalıb.

2026-cı ilin birinci rübündə isə ölkəmizdə 29 milyard 703,2 milyon manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, yaradılan əlavə dəyərin 3,3 faizi kənd təsərrüfatı sektorunun payına düşüb.

**Ötən il aqrar-sənaye məhsullarının ixracı 1,3 milyard dollara çatıb**

Aqrar sahə qeyri-neft sektorunun əsas aparıcı sahələrindən biri kimi milli ixracın artmasında da mühüm rol oynayır. Məhz kənd təsərrüfatı sahəsində son illərdə dayanıqlı artımın təmin edilməsi sayəsində qeyri-neft məhsullarının ixracında aqrar-sənaye mallarının payı əhəmiyyətli dərəcədə yüksəlməkdədir. Son 10 ildə qeyri-neft məhsullarının ixracında hər il aqrar malların payı artır. 2025-ci ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 3,6 milyard dollar təşkil edib ki, ixrac portfelində yeyinti məhsulları üzrə ixrac 1,2 milyard dollara bərabər olub. İxrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, pambıq iplik 19,3 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb. Ötən il aqrar məhsullar üzrə ixrac ümumilikdə 26,7 faiz artaraq 1 milyard dollar təşkil edib. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 1,3 milyard dollara bərabər olub.

Bu dinamika 2026-cı ilin birinci rübündə də davam edib, yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 11,7 faiz artaraq 862 milyon dollar təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 25,1 faiz artaraq 281 milyon dollara bərabər olub. İxrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,5 dəfə, pambıq iplik 2 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 68,4 faiz, pambıq lifi 43,5 faiz, meyvə-tərəvəz 22,1 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 20,4 faiz, çay 15,1 faiz, spirtli və spirtsiz içkilər isə 4,3 faiz artıb. Ümumilikdə, qeyd edilən dövr ərzində aqrar məhsullar üzrə ixrac 26,6 faiz artaraq 215,6 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac isə 27,4 faiz artaraq 88 milyon dollar təşkil edib. Toplam dəyər ifadəsi ilə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,8 faiz artaraq 303,7 milyon dollara bərabər olub.



**Aqroparkların istehsala və ixraca töhfəsi**

Kənd təsərrüfatının inkişafında və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində aqroparkların da mühüm rolu var. Aqroparklarda istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətləri formalaşdırılır ki, bu da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına imkan yaradır, aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir. Hazırda ölkənin 32 rayonu üzrə 240 min hektardan çox ərazidə ümumi layihə dəyəri 2,5 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,5 milyard manat özəl investisiya qoyulub. Aqroparklar digər kənd təsərrüfatı müəssisələri kimi, vergi güzəştlərindən, subsidiyalardan, güzəştli kredit və lizinqdən yararlanırlar. Bundan əlavə dövlət tərəfindən digər dəstək tədbirləri də görülür. Ötən müddətdə ölkədə aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Bununla yanaşı, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, investisiya təşviqi sənədi almış 17 aqropark texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.

**Azad ərazilərdə kənd təsərrüfatının inkişafı**

Uzun illər Ermənistanın işğalı nəticəsində kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsi ölkəmizin aqrar inkişafından kənarda qalıb. Belə ki, 231 min hektar əkin, 352 min hektara yaxın örüş-otlaq və biçənək sahəsinin illər boyu istifadə edilməməsi sayəsində min tonlarla taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz məhsulları kənd təsərrüfatının ümumi balansında ciddi təsir edib. İşğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini həmin ərazilərdə istehsal olunan məhsullar təmin edirdi.

Göründüyü kimi, işğaldan azad olunan ərazilərin kənd təsərrüfatının inkişafı baxımından potensialı çox genişdir. Bu potensialdan səmərəli istifadəyə nail olunması üçün müvafiq tədbirlərin görülməsi olduqca zəruridir və azad ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı ilə də bağlı dövlət başçısı tərəfindən hökumət üzvlərinə tapşırıqlar verilib. Həmin tapşırığa əsasən, ərazilərin minalardan təmizlənməsi ilə yanaşı, torpaqların bərpa edilməsi və təsərrüfatların istifadəsinə verilməsi üçün müvafiq işlər görülməkdədir. Həm əkinçilik, həm də heyvandarlığın intensiv amillər hesabına inkişafı imkanları nəzərdən keçirilir. Artıq bu bölgədə kiçik fermer təsərrüfatları, meyvəçilik bağları salınır, aqrotexniki xidmətlər göstərilir. Xarici iş adamları da bu prosesə cəlb olunub və aqroparklar yaradılmaqdadır. Zəngilanda Türkiyə ilə birgə qurulmuş "Dost Aqropark" fəaliyyət göstərir.

Göründüyü kimi, işğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatının inkişaf perspektivləri olduqca güclüdür və bu potensialdan səmərəli istifadə ölkəmizdə aqrar sahədə istehsal həcmini ən azı 30-40 faiz yüksəldə bilər.

**Ərzaq təhlükəsizliyinin gücləndirilməsi prioritetdir**

Mövcud rəqəmlərdə müsbət dinamika müşahidə olunsa da, bu, hökuməti qane etmir, çünki ölkəmizin potensialı bundan qat-qat çoxdur. Ona görə də, aqrar sahənin inkişafa üçün əlavə tədbirlərin həyata keçirilməsi, istehsalın daha da artırılması və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi prioritet məsələdir. Ələlxüsus da da, qlobal mühitdə baş verən qeyri-müəyyənliklər, geosiyasi proseslərin gərginləşməsi bu məsələnin vacibliyini daha ön plana çıxarır. Yuxarıda qeyd etdiyimiz xarici faktorlar nəticəsində qiymətlərin artması, xüsusilə də ərzaq malları və xammalların, gübrə, yanacaq və s malların qiymətində kəskin bahalaşma, logistika və təchizat xərclərinin yüksəlməsi ən çox aqrar sahədə istehsal və emal xərclərinə təsir edir. Hazırda ölkəmizdə ərzaq mallarının, o cümlədən istehsal üçün xammalın əhəmiyyətli bir hissəsi xaricdən idxal olunur. Nəticədə, inflyasiya da artır. Bütün bunlar kənd təsərrüfatında milli istehsal amilinə diqqətin daha da artırılmasının aktuallaşdırır.

Bu baxımdan İqtisadi Şurada aqrar sahənin inkişafına dair mühüm məsələlərin müzakirəsi, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və digər prioritetlərin müəyyənləşdirilməsi günün aktual çağırışı kimi dəyərləndirilə bilər.

*E.CƏFƏRLİ*

# İnvestisiya şirkətləri risklərdən qorunacaq

Mərkəzi Bankın (MB) İdarə Heyəti "İnvestisiya şirkətinin davamlı kapital tələbləri haqqında Qayda"nı təsdiqləyib. Qərara əsasən, investisiya şirkətinin məcmu kapitalı investisiya şirkətinin biznes strategiyasını dəstəkləməli, daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı investisiya şirkətinin maliyyə dayanıqlığını təmin etməlidir. Məcmu kapitala yalnız dəyəri pul vəsaiti ilə ödənilən maliyyə alətləri daxil ediləcək. İnvestisiya şirkətinin nizamnamə kapitalı (xarici investisiya şirkətlərinin filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsait) yalnız Azərbaycanın milli valyutasında ödənilən pul vəsaiti ilə formalaşdırılacaq.

## Birinci və ikinci dərəcəli kapital

İnvestisiya şirkəti qiymətli kağızlar bazarında mövcud qanunvericiliyə əsasən, investisiya xidmətləri göstərən hüquqi şəxsdir. Hazırda maliyyə sektorunda 15-ə yaxın investisiya şirkəti fəaliyyət göstərir ki, onların əsas əməliyyatları dövlət istiqrazları, səhm, korporativ istiqrazlar və digər qiymətli kağızlar üzrə birjadakı repo əməliyyatlardır. Bir sözlə, bu şirkətlər qiymətli kağızlar bazarının inkişafında əsas iştirakçıdır.

İnvestisiya şirkətlərinin məcmu kapitalının strukturuna birinci dərəcəli (əsas kapital) və ikinci dərəcəli kapital (əlavə kapital) daxildir. Məcmu kapital birinci və ikinci dərəcəli kapitala daxil olan komponentlərin cəmi ilə məcmu kapitaldan tutulmaların fərqinə bərabərdir. İnvestisiya şirkətinin Müşahidə Şurası və icra orqanı məcmu kapitalın investisiya şirkətinin üzləşdiyi bütün risklərin səviyyəsinə uyğun həcmdə, bu qaydada müəyyənləşmiş minimum miqdardan az olmayaraq saxlanmasına riayət olunmasını təmin etməlidir.

Aktivlərin bazar dəyəri ilə hesablanmış cəmi məbləğinin orta dəyəri 50 milyon manatdan artıq olan investisiya şirkətləri birinci kateqoriyalı investisiya şirkəti hesab edilir. Bu şirkətlər qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi, mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması və s. maliyyə proseslərində fəal yer alır. Həmin əməliyyatlarda sıx fəaliyyəti olmayan investisiya şirkətləri isə ikinci kateqoriyalı investisiya şirkəti kimi təsnifləşdirilir.



## Güclü kapital investisiya şirkətlərini qoruyur

Məcmu kapitalının həcmindən asılı olmayaraq, bütün investisiya şirkətləri üçün risklər mövcuddur. Bura kredit, bazar, əməliyyat, əmtəə, konsentrasiya, hesablaşma və kontragent, səkm-qiymət və s. risklər daxildir ki, bütün bunlar kapital tələbinin cəmini təşkil edir. Həmçinin digər dövlətlərə və mərkəzi banklara, beynəlxalq təşkilatlara, maliyyə institutlarına və korporativ təşkilatlara qarşı risklər də mövcuddur. Eləcə də likvidlik və valyuta riski də investisiya şirkətləri üçün çox ciddi hadisələrdən biri sayılır.

Risk isə liberal iqtisadiyyatda gözlənilən hadisələrdən biridir. Ona görə də, risklərdən sığortalanmaq və yaxud güclü risk bloku yaratmaq üçün investisiya şirkətlərinin kapital fondunun dayanıqlılığı olduqca vacibdir. Ən əsası isə investisiya şirkətinin məcmu kapitalı güclü olmalıdır ki, daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı maliyyə risklərini qoruya bilsin.

Birinci kateqoriyalı investisiya şirkətlərinin davamlı kapital tələbi onun kredit riskləri, bazar riskləri, əməliyyat riskləri, hesablaşma və kontragent riskləri, habelə konsentrasiya risklərinə qarşı hesablanmış kapital tələblərinin cəminə bərabərdir. İkinci kateqoriyalı investisiya şirkətlərinin davamlı kapital tələbi onun nizamnamə kapitalının minimum miqdarı, audit olunmuş illik maliyyə hesabatları əsasında hesablanmış əməliyyat və inzibati xərclərinin 25 faizi həcmində və risk faktoru tələblərinin ən böyüyünə bərabər sayılır.

## Şirkətlər risk kateqoriyalarına bölünəcək

Yeni qərar investisiya şirkətlərinin daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı risklərinin sərhəddini müəyyən edəcək. Belə ki, kredit riskləri zamanı kapital tələbi hesablandıqda risk kateqoriyalara bölünəcək, hər bir kateqoriya üzrə risk çəkisi müəyyənləşəcək. Nəticədə yekun risk dərəcəsi üzrə ölçülmüş aktivlərin 8 faizi həddində kredit riski üzrə kapital tələbi müəyyən ediləcək. Yeri gəlmişkən, bir aktiv üzrə birdən çox kredit reytinqi mövcud olduqda, onların arasından minimum kredit reytinqi nəzərə alınacaq. Paylarının və ya səhmlərinin 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən emissiya edilmiş istiqrazların risk çəkisi isə 50 faiz nisbətində müəyyən olunacaq. Digər balans aktivləri risk qruplarına xüsusiyyətlərindən asılı olaraq təyin ediləcək. Məsələn, aktivi 20 faiz olan şirkətlərin risk əmsalı 0,2 faizə bərabər olacaq.

Həmçinin, bu qərar investisiya şirkətlərinin investisiya planlaşdırması və maliyyə hədəflərinin müəyyən edilməsi, eləcə də risk profilinin dəyərləndirilməsi baxımından da əhəmiyyət daşıyır. Şirkətlər yeni qayda əsasında, daim uyğun bazarların və alətlərin seçilməsi, portfelin qurulması və diversifikasiyası, davamlı monitorinq və tənzimləmə, bazardakı vəziyyətə və mühitə uyğun qərarlar qəbul edə biləcək.

Beləliklə, yeni qaydalar investisiya şirkətlərinin fəaliyyətini tənzimləməklə onları risklərdən daha möhkəm qoruyacaq, eləcə də maliyyə bazarlarında şəffaflığı artıracaq. Bu qaydalar, həmçinin, investisiya mühitinə və maliyyə sabitliyinə müsbət təsir göstərəcək.

*E.CƏFƏRLİ*

# Beynəlxalq səyyahlar Qarabağ və Şərqi Zəngəzurda...



“NomadMania” klubunun təsisçisi və rəhbəri, yunan əsilli Böyük Britaniya vətəndaşı Harri Mitsidisin başçılığı ilə dünya miqyaslı beynəlxalq səyyahların Qarabağ və Şərqi Zəngəzura səfəri başlayıb.

“Report”un işğaldan azad edilmiş ərazilərə ezam olunmuş müxbiri xəbər verir ki, budəfəki heyətə 37 ölkədən 79 nəfər daxildir, bu da sayca indiyədək Qarabağ və Şərqi Zəngəzura səfər edən beynəlxalq səyahətçilərin ən böyük qrupudur.

“NomadMania” Yer kürəsini 1301 bölgəyə ayıraraq reytinq cədvəli müəyyən edir. Harry Mitsidis bu 1301 bölgənin hamısında artıqlaması ilə olmaqla hazırda dünya üzrə birinci yerdə qərarlaşıb. “NomadMania” illik toplantısını da ilk dəfə Azərbaycanda keçirib.

Bu səfər işğaldan azad edilmiş ərazilərin “black tourism” çərçivəsində tanıdılması və aparılan genişmiqyaslı quruculuq, bərpa işləri ilə tanışlıq üçün müstəsna əhəmiyyət daşıyır.

Dünyanın əsas səyyah klublarının xətti ilə 2020-2025-ci illərdə Qarabağ və Şərqi Zəngəzura 15 dəfə beynəlxalq səyahətçilərin səfərləri təşkil edilib. Bu, sayca 16-cı səfərdir.

# Siyasi təxribat...

## Millət vəkilləri Belçika və Niderland parlamentlərinin qəbul etdiyi qətnamələri pisləyiblər

*Nardar BAYRAMLI*

Belçika və Niderlandın Nümayəndələr parlamentlərinin aprelin 16-da Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamələr Milli Məclis (MM) tərəfindən etirazla qarşılanıb. Parlamentin dünən keçirilən iclasında millət vəkilləri həmin sənədləri pisləyiblər.

Deputat Tural Gəncəliyev bildirib ki, qətnamələrdə Cənubi Qafqaz regionunda sülh prosesindən bəhs edilməyib. Onun sözlərinə görə, özünü demokratik sayan hər iki ölkə beynəlxalq hüquq normalarını kobud şəkildə pozurlar. “Yaxşı olar ki, Belçika və Niderland özlərinin müstəmləkə keçmişlərini xatırlasınlar və zülm etdikləri xalqlardan üzr istəsinlər”, -deyə millət vəkili vurğulayıb.



**Parlamentlərarası dostluq qrupunun fəaliyyəti dayandırılsın!**

Deputat Elçin Mirzəbəyli çıxışında deyib ki, Belçika və Niderland parlamentlərinin son qətnamələri nə hüquqi əsaslara, nə də regiondakı real vəziyyətə söykənir. Bu sənədlər siyasi manipulyasiya nümunəsi olmaqla yanaşı, beynəlxalq hüququn prinsiplərinə selektiv və riyakar yanaşmanın, açıq qərəzin, siyasi aqressiyanın növbəti təzahürüdür. O, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyətinin dayandırılmasını təklif edib. Millət vəkilinin fikrincə, bu, emosional reaksiya deyil: “Əgər əməkdaşlıq platformaları qarşı tərəf tərəfindən alətə çevrilirsə, dialoq imitasiya xarakteri daşıyırsa, bu mexanizmlərin saxlanılması sadəcə formal xarakter daşıyır və heç bir real məna kəsb etmir”.

Millət vəkili Azay Quliyev də bildirib ki, Belçika və Niderland parlamentlərində qəbul olunan qətnamələr Azərbaycana qarşı yönəlmiş siyasi təxribatdır. Bu “sənədlər” faktlara deyil, yalanlara, təhriflərə və əsassız ittihamlara əsaslanır. Onun sözlərinə görə, bu sənədlərin müəllifləri və lehinə səs verənlər beynəlxalq hüququn prinsiplərini müdafiə etdiklərini iddia etsələr də, əslində həmin prinsipləri, xüsusilə dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün toxunulmazlığı, eləcə də qanunun aliliyi prinsiplərini kobud şəkildə pozduqlarının fərqindədirlər. “Ən paradoksal məqam isə ondan ibarətdir ki, bu qətnamələr regionda sülh prosesinin irəlilədiyi, düşmənçiliyi və seperatizmi körükləyən köhnə narrativlərin həm yerli, həm də beynəlxalq gündəlikdən tam çıxarıldığı vaxtda, o cümlədən, Azərbaycan və Ermənistan parlament sədrləri arasında konstruktiv dialoqun davam etdiyi gündə qəbul edilib”, - deyə millət vəkili vurğulayıb.

**MM: Qətiyyətlə rədd edirik!**

Qeyd edək ki, Milli Məclis sözügedən məsələ ilə bağlı açıqlama yayıb. Parlament Azərbaycan-Ermənistan sülh prosesinə, hər iki ölkənin birgə səyləri ilə regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına yönəlmiş addımlara zərbə vurmaq məqsədi daşıyan qətnamələr qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizin suveren ərazisinə təhrif edilmiş formada istinad edən, saxta iddialar və əsassız ittihamlar üzərində qurulmuş bu birtərəfli və qərəzli sənədləri kəskin şəkildə qınayıb və qətiyyətlə rədd edib.

Açıqlamada qeyd olunub ki, Azərbaycan ilə Ermənistan arasında mövcud olmuş münaqişənin tarixini və nəticələrini təhrif edən, ənənəvi anti-Azərbaycan, islamofob dairələrin qeyri-sağlam və irqçi təxəyyülündən irəli gələn bu sənədlər beynəlxalq hüququn və qanunun aliliyinin kobud şəkildə pozulması, regionda davam edən və həssas mərhələdən keçən sülh prosesinə qarşı təxribatdır. Bu sənədlərin xüsusilə Azərbaycan və Ermənistanın parlament sədrlərinin növbəti görüşünün keçirildiyi bir vaxtda qəbul edilməsi onların “təşəbbüskarları”nın regiondakı reallıqlardan uzaq olduqlarını, əsl niyyətlərinin sülh və dialoqu təşviq etmək deyil, məhz düşmənçiliyi və qisasçılığı qızışdırmaq olduğunu bariz şəkildə göstərir. “Belçika Nümayəndələr Palatasının qəbul etdiyi sənəddə tarixi Vaşinqton Sülh Sammitinə heç bir istinadın olmaması, Sammitin nəticələrinin, o cümlədən “Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş”in paraflanmasının qeyd edilməməsi sənədin müəllifləri və onun lehinə səs verənlərin mövzu ilə bağlı “savadlılığı”nın və xroniki hal almış qərəzliliyinin daha bir əyani nümunəsidir”, - deyə vurğulanıb.

**Caniləri “müharibə əsiri” adlandırmaq insan hüquqlarına qəsddir**

Diqqətə çatdırılıb ki, Azərbaycan-Ermənistan sərhədində vəziyyəti hərbi baxımdan riskli hesab edən və bunu Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının davamlı fəaliyyəti üçün əsas kimi qələmə verən sənəd müəlliflərinin qiymətləndirmələri, ilk növbədə, Ermənistanın rəsmi şəxslərinin ictimaiyyətə açıqlanan mövqeyi ilə ziddiyyət təşkil edir. Məhz Azərbaycan tərəfinin sülhə yönəlmiş addımları və məsuliyyətli davranışı nəticəsində son iki il sərhəddə hər hansı hərbi insidentin baş verməməyi ən sakit dövr kimi xarakterizə olunur və bu, Ermənistan tərəfindən də təsdiq edilir. “Müharibə və insanlıq əleyhinə cinayətlər törətdiyi şəffaf və açıq hüquqi proses yolu ilə sübuta yetirilmiş şəxsləri “müharibə əsiri” kimi qələmə vermək və onların azadlığa buraxılmasını tələb etmək, hər şeydən əvvəl, sözügedən sənədlərdə istinad olunan beynəlxalq hüquq normalarına, insan hüquqlarına və qanunun aliliyinə qarşı qəsddir. Məhkum edilmiş həmin şəxslərin istintaq və mühakimə prosesində bütün hüquqlarının qorunduğu, onlar üzərində məhkəmə prosesinin qanuniliyi müvafiq bitərəf beynəlxalq mexanizmlər tərəfindən təsbit edilmişdir. Bu kontekstdə, həmin şəxslərin azad edilməsi, habelə onların mühakimə prosesi ilə əlaqədar Azərbaycana qarşı tədbirlərin görülməsi ilə bağlı Ermənistan tərəfindən edilmiş müraciətlərin vaxtilə Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən bir neçə dəfə rədd edilməsi xüsusilə qeyd olunmalıdır. Eyni qaydada, BMT İnsan Hüquqları Şurasının Əsassız həbslər üzrə İşçi Qrupunun 2025-ci il 13 mart tarixli müvafiq rəyində qeyd olunan şəxslərin Azərbaycan tərəfindən həbsinin və mühakiməsinin qanuniliyi təsbit olunub, həmin şəxslərin hüquqlarının pozulmasına dair iddialar təmin edilməyib. Biz qeyd olunan əsassız çağırışların ünvanlandığı aidiyyəti dövlətlərin və Avropa İttifaqının ikitərəfli dialoq vasitəsilə qətiyyətlə irəlilədilən sülh prosesinə pozucu müdaxilədən çəkinəcəyini gözləyir, onları belə təxribatçı addımların təkrarlanmaması üçün zəruri tədbirlər görməyə dəvət edirik”-deyə bildirilib.

Milli Məclis Belçika və Niderland parlamentlərindən Azərbaycana qarşı nifrət kampaniyasına və regionda sülhün möhkəmləndirilməsi səylərinə zərbə vuran addımlara son qoymağı tələb edərək bəyan edib ki, bu addımlar hazırkı həssas mərhələdə yalnız sülh əleyhinə fəaliyyət göstərən revanşist qüvvələrin həvəsləndirilməsinə deyil, həm də Avropa İttifaqının regionla bağlı bəyan etdiyi təhlükəsizlik və iqtisadi maraqlarına xələl gətirilməsinə xidmət edir.

# Bir əsrlik dil və kimlik

Bu gün böyük türk coğrafiyasında müxtəlif istiqamətləri əhatə edən inteqrasiyanın intensivləşməsi böyük məmnunluq doğurur. Artıq dönməz hal alan bu prosesin təməli isə 100 il bundan əvvəl Bakının ev sahibliyi etdiyi I Türkoloji Qurultayda qoyulub. Bir əsr sonra türk birliyinin möhkəmlənməsini hədəfləyən təşəbbüslər məhz sözügedən qurultayda işıqlı ziyalıların dövrün ideoloji qadağalarına məhəl qoymayaraq irəli sürdükləri ideallardan qaynaqlanır.

Bu fikir böyük uğurla yekunlaşan V Antalya Diplomatiya Forumu çərçivəsində təşkil olunan “Bir əsrlik dil və kimlik: Bakı Türkoloji Qurultayından Türk inteqrasiyasına” mövzusunda panel iclasda bir daha etiraf olunub. Qurultayın 100 illik yubileyinə həsr olunan iclasda Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Omüraliyev, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Aktoti Raimkulova, TÜRKSOY-un Baş katibi Sultan Raev, TÜRKPA-nın Baş katibi Ramil Həsən və Türk Dil Qurumunun sədri Osman Mertin mövzu ilə bağlı fikirlərini bölüşüblər.




## Türk xalqlarının inteqrasiyasında mərhələ yaratmış mühüm hadisə

Birinci Türkoloji Qurultay 1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində baş tutub. Qurultayın işində keçmiş Sovet İttifaqı məkanında yaşayan türk xalqlarının təmsilçiləri ilə yanaşı, xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar iştirak edib. Qurultayda türk dillərinin aşağıdakı 7 böyük problemi müzakirə obyekti olub və aşağıdakı müvafiq qərarlara imza atılıb:

- Əlifba məsələsi;
- İmla-orfoqrafiya problemi;
- Termin məsələsi;
- Tədris-metodika məsələsi;
- Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Çox doğru olaraq Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələ kimi dəyərləndirilir. Antalya Diplomatiya Forumu çərçivəsində baş tutan panel iclasda TDT-nin Baş katibi çıxışında Bakı Türkologiya Qurultayını yalnız alimlərin geniş toplantısı kimi deyil, həm də bu gün müşahidə etdiyimiz Türk dünyası inteqrasiyasının əsasını qoyan tarixi və intellektual mərhələ kimi qiymətləndirib.

O bildirib ki, bu qurultay həm elmi, həm də praktik səviyyədə birlik ideyasını təşviq edən ilk platforma olmuşdur. Bu baxımdan, İsmayıl bəy Qaspıralı tərəfindən irəli sürülən “dildə, fikirdə və əməldə birlik” prinsipi bu gün də aktuallığını qoruyan əsas istiqamətləndirici ideyalardan biridir.

Şahin Mustafayev isə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın Türk dünyası tarixində son dərəcə mühüm bir hadisə olduğunu vurğulayıb, bu hadisənin tarixi əhəmiyyətini daha yaxşı anlamaq və düzgün qiymətləndirmək üçün, qurultayın keçirildiyi dövrün tarixi-siyasi mühiti və həmin dövrdəki şəraitin mütləq nəzərə alınmasının zəruriliyini qeyd edib. “Türk tarixində ilk dəfə olaraq bu qurultay çərçivəsində Sibirdən Krıma, Anadoludan digər geniş coğrafiyalara qədər yaşayan türk xalqlarının nümayəndələri bir araya gəldilər. Onlar ortaq mədəniyyət, dil, tarix və gələcək ilə bağlı fikirlərini sərbəst şəkildə ifadə etmək imkanı qazandılar. Eyni zamanda, türkçülük ideyasının inkişafı və türk dünyasının gələcəyi baxımından mühüm qərarlar qəbul edilib”, - deyə Şahin Mustafayev bildirib.

## İdeyadan reallığa və yaranan yeni çağırışlar

Türk dünyasının vahid ailəyə çevrilməsində Azərbaycanın müstəsna rolu var. Bu hədəfə doğru Bakının zamanında ev sahibliyi etdiyi I Türkoloji Qurultaydan başlayan şərəfli yol hazırda da davam etdirilir. Biz qürur duyuruq ki, artıq beynəlxalq təsisat kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatının (TDT) əsası Prezident İlham Əliyevin təşəbbüsü ilə Naxçıvanda qoyulub. Eyni zamanda, 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışı öz əksini tapıb. Prezident İlham Əliyev 22 oktyabr 2025-ci il tarixində “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” sərəncam imzalayıb. Sərəncamda xüsusi olaraq vurğulanırr ki, Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir.

Beləliklə, I Türkoloji Qurultay türk dünyasının sıx inteqrasiyası üçün möhkəm özül formalaşdırıb. Müasir dövrün reallıqları isə fərqlidir və bu reallıqların yaratdığı çağırışlara uyğun adekvat addımlar atılmalıdır. Hazırda informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı fonunda qloballaşma deyilən proses kifayət qədər yüksək dinamikaya malikdir. O cümlədən dil mühitində sürətli transformasiya prosesləri izlənilir, mənəvi dəyərlərə, ənənələrə, bütövlükdə milli kimliyə təhdidlər artır. Baş verən transformasiyalar ciddi müzakirələrin aparılmasını, yeni şəraitdə türk ailəsi üçün ortaq qərarların qəbul edilməsini, başqa sözlə desək, II Türkoloji Qurultayın keçirilməsi zərurətini gündəmə gətirib.

*Mübariz FEYİZLİ*

# Fransada hakimiyyət savaşı başladı...

Fransada 2027-ci ildə növbəti prezident seçkilərinin keçirilməsinə hələ xeyli vaxt qalsa da, ölkənin siyasi çevrələrində, əslində, hakimiyyət savaşının başladığı açıq-aydın hiss olunur. Siyasi elitanın olimpinə yüksəlmək istəyən qüvvələr həm iqtidar komandasında, həm də müxalifət düşərgəsində yer alırlar.

İndiki iqtidarın iddialı üzvləri müxtəlif təşəbbüslər irəli sürməklə komanda daxilində fərqlənib önə çıxmaq və cəmiyyətin rəğbətini qazanmaq niyyətindədirlər. Paralel şəkildə, müxalifətin fəallığının artırdığı müşahidə olunur. Ayrı-ayrı siyasi partiyaların nümayəndələri anlayırlar ki, Yelisey Sarayına gedən yolda mübarizə sərt olacaq. Buna görə də indidən qüvvələrini səfərbər etməyə, tərəfdarlarının sayını artırmağa çalışırlar. Siyasi qüvvələrin seçkiyə koalisiya formasında getmək ehtimalı da müzakirə olunan variantlar sırasındadır.

## Erkən seçki hazırlıqlarının “qırmızı xətti”

Fransada erkən başlayan hakimiyyət mübarizəsinin “qırmızı xətti”ni isə müxtəlif düşərgələrin məhz Makronsuz eraya hazırlaşmaları təşkil edir. Makronun növbəti seçkilərdə iştirak etməyəcəyi bəllidir - buna onun hüquqi əsası yoxdur.

Əlbəttə, Makronsuz dönəmdə də indiki siyasi kursu davam etdirmək mümkün olardı. Ancaq indi bu variant yalnız nəzəri ehtimal kimi görünür. İzlənilən proseslər onu deməyə əsas verir ki, Fransada 2027-ci ildə keçiriləcək növbəti prezident seçkilərindən sonra yeni siyasi dönəmin başlayacağı qaçılmaz olacaq. Analitik dairələrin mütəxəssisləri müşahidələrə və reytinq sorğularının nəticələrinə əsaslanmaqla bildirirlər ki, 2027-ci il seçkilərinin nəticələrinə görə ölkədə yalnız Makron iqtidarı yeni komanda ilə əvəzlənməyəcək, paralel şəkildə Yelisey Sarayının siyasi kursu dəyişəcək.

Belə proqnozlar Makronun iki prezidentliyi dönəmində həyata keçirdiyi siyasət əsasında formalaşıb. Etiraf olunur ki, Yelisey Sarayının indiki komanda ilə apardığı siyasət uğursuzdur. Ölkə bəhs olunan dövrdə iqtisadi çətinliklərlə üzləşib, dərin hökumət böhranı yaşanıb. Ölkə iqtisadiyyatının xarici təsirlərə həssaslığı pik həddə çatıb. Bu, Yaxın Şərq münaqişəsi fonunda daha aydın görünür. Fransa hökuməti 2026-cı ildə büdcə kəsirinin ÜDM-in 5 faizi səviyyəsinə çatdırılması məqsədilə təxminən 6 milyard avro məbləğində xərcləri dondurmaq niyyətindədir. Yeli Yelisey Sarayının indiki kursundan imtina həmçinin Makron iqtidarının siyasi iflası ilə şərtlənir. Bu iflas xüsusilə Avropa Parlamentinə və Milli Assambleyaya keçirilən son seçkilərdə özünün pik həddinə çatdı. Necə deyərlər, iqtidar komandası iki seçkidə iki siyasi iflasın acısını yaşamaq məcburiyyətində qaldı. Xatırladaq ki, Fransada Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı “Milli birlik” partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində Makronun revanş cəhdi idi. Ancaq Makronun ikinci seçki cəhdi də uğursuz oldu. Belə ki, Milli Assambleyaya seçkilərin birinci turunda sağçı “Milli birlik” partiyası və onunla müttəfiq qüvvələr 33,4 faiz səs toplayaraq qalib gəldi. Həmin seçkilərdə ikinci yeri 27,98 faizlə solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası qazandı. Makronun mərkəzçi adlandırılan koalisiyası isə 20,76 faiz səslə yalnız üçüncü yerlə kifayətlənməli oldu.

Makronun komandası dalbadal iki məğlubiyyətdən sonra üçüncü seçki cəhdinə - Milli Assambleyaya seçki-

KİV-in məlumatına görə bu barədə ölkənin Baş naziri Sebastyan Lekornunun aprelin 21-də kabinet üzvlərinə göndərdiyi məktubda qeyd olunub. Onun qiymətləndirməsinə görə, Yaxın Şərqdəki münaqişənin nəticələri dövlət maliyyəsinə əhəmiyyətli təzyiq göstərib. Planlaşdırılır ki, təxminən 4 milyard avro ixtisarlar mərkəzi hökumətin xərclərinə, daha 2 milyard avro isə sosial təminat sisteminə aid olacaq.

Beləliklə, iqtisadi imkanların azalması sosial siyasətə ciddi təsir göstərir. Xüsusilə də aztəminatlı təbəqənin, pensiyaçıların, aqrar sahədə çalışanların problemləri artıb.

Eyni zamanda, Fransa Makron iqtidarı dönəmində xarici siyasətdə davamlı şəkildə uğursuzluqlara düçar olub. Makronun ölkə daxilində reytinqinin hədsiz dərəcədə aşağı düşdüyü aparılan müxtəlif rəy sorğularında dəfələrlə təsdiqlənib. Ona həmçinin xarici dairələrdə də adekvat münasibət bəslənilmir. Əksinə, Makron bir sıra hallarda lağ obyektinə çevrilməsi ilə bütövlükdə Fransanın nüfuzuna xələl gətirir. Bir vaxtlar Fransa Avropa İttifaqının lokomotivi sayılırdı. Son on ildə isə bu mövqe tədricən itirilib. Makronun siyasəti həmçinin müstəmləkə ölkələrində də iflasa uğramaqdadır. Son illərdə həmin ölkələrdə “Rədd ol. Fransa!” şüarları tez-tez səslənir. Artıq Yelisey Sarayı bir sıra ərazilərdə təsir imkanlarını itirib. lərin ikinci turuna saxtakarlığa, siyasi oyunbazlığa qol qoymaqla hazırlaşdı. Belə ki, Yelisey Sarayından gələn siyasi sifariş əsasında sağçıların ikinci turda mütləq qələbəsini əngəlləmək məqsədilə planlar quruldu - solçuların üstünlük təşkil etdikləri dairələrdə mərkəzçilər, mərkəzçilərin üstünlük təşkil etdikləri dairələrdə isə solçular namizədliklərini geri götürdülər və 200-dən çox namizəd ikinci tur seçkilərinə qatılmadı. Bu seçki oyunu prezident koalisiyasına



## İki seçki, iki siyasi iflas

müəyyən üstünlüklər yaratmaqla mərkəzçi düşərgədən birinci turla müqayisədə daha çox namizədin qalib gəlməsinə yol açsa da, Makronun parlamentdə mütləq səs çoxluğuna nail olmaq istəyini təmin etmədi. Mərkəzçilər ikinci turun nəticələrinə görə Mari Le Penin partiyasını üstələsələr də, yalnız ikinci yerlə kifayətlənməli oldular.

Makron iqtidarının son illərdə ardıcıl olaraq hökumət böhranı ilə üzləşməsinin ən əsas səbəblərindən biri də məhz seçkilərdəki iflasla bağlıdır. Parlamentdə mütləq çoxluğun təmin edilməməsi hakimiyyət üçün xüsusilə də vacib qərarların qəbul olunmasında ciddi çətinliklər yaradır. Buna görə də Makron bir sıra hallarda qərarları konstitusiyanın tələblərini pozmaqla verir ki, bu da cəmiyyətdə hüququn, demokratiyanın pozulması kimi qəbul edilir və hakimiyyətə qarşı narazılıqları artırır.

**MÜBARİZ**

# Macarıstan geri çəkilmədi...

## “Drujba”nın açılması Aİ-nin “prioritet”inə çevrildi

Rusiya - Ukrayna müharibəsi ilə bağlı “dəngələr” yenidən dəyişməkdədir. ABŞ-ın daha çox Yaxın Şərqdəki vəziyyətə “diqqət yetirməsi” Şərqi Avropadakı eskalasiya ilə bağlı danışıqlar prosesində “taym-aut” götürülməsinə səbəb olub. Qeyd edək ki, bu istiqamətdə danışıqlar son dəfə fevral ayında keçirilib. Artıq iki aydır ki, Rusiya-Ukrayna-ABŞ formatlı üçtərəfli danışıqlar masası yığılmır. Bu isə prosesin yenidən qeyri-müəyyən müddətə uzanmasına yol açır.

Yaranan “sükutdan” istifadə etməyə çalışan Avropa qısa müddətdə prosesi öz nəzarətinə keçirmək uğrunda fəaliyyətə başlayıb. Təbii ki, ilkin prioritet Ukraynaya ayrılması nəzərdə tutulan 90 milyard avroluq yardımın gerçəkləşməsidir. Bunun üçün isə ən böyük “manea” də aradan qalxmalıdır - Macarıstan kreditlə bağlı vetosunu geri götürməlidir. Budeapeştin şərti isə aydındır - “Drujba” neft boru kəməri açılmasa, veto qaldırılmayacaq...

**Neft yoxdursa, 90 milyard da yoxdur...**

Xatırladaq ki, ötən ilin dekabrında Macarıstanın Baş naziri Viktor Orban Aİ-nin sammitində Ukraynaya 90 milyard avroluq kredit vermək planlarına qarşı çıxmamışdı - amma Macarıstanın bu təşəbbüsdə iştirak etməyəcəyini də vurğulamışdı. Rəsmi Budapeştin mövqeyi isə Çexiya və Slovakiya üçün də analogiya yaratmışdı - hər iki ölkə veto qoymadan prosesdə iştirakdan imtina etmişdi. Sonradan isə vəziyyət dəyişdi - rəsmi Kiyev bu il yanvarın 27-də “Drujba” boru kəmərində təmir işlərinin başlanması barədə məlumat yaydı. Bu isə, Macarıstana və Slovakiyaya Rusiyadan neft tədarükünün dayandırılması demək idi. Budapeşt isə bu səbəblərin doğruluğuna şübhə ilə yanaşaraq Aİ-nin Ukraynaya yardım planına veto qoymaq qərarı verdi. Beləliklə, Macarıstan Aİ-nin krediti üçün son prosedurları təsdiqləməkdən imtina etdi - bu, “Drujba”nın bağlanmasına cavab idi.

**Ukrayna müzakirədən yayındı...**

Avropa Komissiyası kəmərin məqsədli şəkildə bağlanmadığını sübut etməyə çalışsa da, Macarıstanın mövqeyi dəyişməmişdi. Hətta AK-nın enerji komissarı Dan Yorgensen bildirmişdi ki, məsələ ilə bağlı Ukrayna nümayəndə heyəti ilə görüşü olub: “Onlar boru kəmərini mümkün qədər tez təmir etmək üçün çalışdıqlarını söylədilər”.

Macarıstan və Slovakiya isə mart ayında rəsmi Kiyevi “Drujba” neft kəmərinin bərpası ilə bağlı müzakirələrə dəvət etsə də, qarşı tərəfin imtinası ilə qarşılaşdılar. Bərpa ilə bağlı Ukraynanın energetika naziri ilə görüş keçirmək təfklifi də qəbul olunmadı. Macarıstanın xarici işlər və iqtisadi əlaqələr naziri Peter Siyarto Avropa İttifaqı XİN rəhbərlərinin görüşü əsnasında Brüsseldə “Drujba” kəmərinin texniki cəhətdən etibarlı olduğunu və Ukraynanın onu yalnız siyasi səbəblərə görə bağladığını iddia etdi. “Kiyev bizə qarşı neft blokadasını davam etdirəcəksə, biz də Brüsselin onlara fayda verəcək heç bir qərarını dəstəkləməyəcəyik”, - deyə nazir vurğulamışdı.

**Macyar da eyni mövqeni bölüşdü...**

Macarıstanda baş tutan son parlament seçkilərinin nəticələri də vəziyyətə təsir etmədi - Macarıstan “Drujba”nın açılmasında israrçı mövqeyindən geri çəkilməyib. Qərb mediasının məlumatına görə, Tisza partiyasının lideri Peter Macyar Ukrayna Prezidenti Volodimir Zelenskini “Drujba” neft kəmərinin tez bir zamanda bərpa olunmasını təmin etməyə çağırıb. Mətbuat konfransında Macyar bildirib ki, Zelenski kəmər təmir edildikdən sonra neft axınını təmin etməlidir. O, həmçinin Rusiyanı neft tədarükünü bərpa etməyə çağırıb. O, Macarıstanın “heç bir şantajı qəbul etməyəcəyini” vurğulayıb.

Aprelin 20-də “Bloomberg” anonim mənbələrə istinadən Ukraynanın “Drujba” boru kəməri ilə neft tədarükünü aprelin 21-də bərpa edəcəyini yazmışdı. Bildirilmişdi ki, boru kəmərinin texniki sınaqları həmin günə planlaşdırılıb. Agentlik qeyd edib ki, bu, Avropa Birliyinin Kiyevə 90 milyard avro krediti blokdan çıxarması üçün yol açacaq. Bir gün əvvəl isə Macarıstanın Baş naziri Viktor Orban Brüsseldən aldığı məlumatı açıqlamışdı - Budapeşt kredit üzrə bloku ləğv edərsə, Kiyev 20 aprel bazar ertəsi günü neft nəqlini bərpa etməyə hazırdır.

**Macarıstan veto qoymasa idi...**

Macarıstanın Avropa İttifaqı işləri üzrə naziri Yanoş Boka isə aprelin 21-də KİV-ə açıqlamasında gün ərzində Rusiyadan Macarıstana “Drujba” neft kəməri vasitəsilə neft tranzitinin bərpa edilmə ehtimalını vurğulayıb. Nazir qeyd edib ki, Brüsseldə keçirilən müzakirələr zamanı ən real ssenari kimi Ukraynanın kəmərin bərpasını elan etməsi nəzərdən keçirilir.

Vurğulayaq ki, aprel ayının ortalarında Zelenski boru kəmərinin təmirini aprelin sonuna qədər başa çatdıracağına söz vermişdi. Kiyev dəqiq başa çatma tarixini açıqlamamışdı. Boka bildirib ki, tədarükün açıldığının elanından sonra operator Macarıstan və Slovakiyadakı neft emalı zavodları üçün Rusiya neftini alan MOL ilə əlaqə saxlayacaq. O, eləcə də vurğulayıb ki, xəttin açılmasında əsas “açar” Macarıstanın “veto” hüququndan istifadə etməsi olub. Nazir bildirib ki, əgər Macarıstan Aİ-nin Ukrayna üçün 90 milyard avroluq kredit xəttini bloklamasaydı, “Drujba” kəməri vasitəsilə neft tədarükü heç vaxt bərpa olunmayacaqdı. O deyib ki, “Macarıstanın taktikası işə yaradı: biz neftimiz tükənməzdən əvvəl ukraynalıların pulu tükəndi”.




**Kiyevdən asılıdır...**

Məsələ ilə bağlı Rusiya da öz mövqeyini açıqlayıb. Prezidentin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib ki, Rusiya “Drujba” boru kəməri vasitəsilə Macarıstan və Slovakiyaya neft nəqlini bərpa etməyə hazırdır: “Sual Ukraynanın şantajı dayandırmağa və “boru kəmərini açmağa” hazır olub-olmamasıdır. Rusiya tərəfi texnoloji cəhətdən hazırdır. Macarıstanla müqavilə öhdəliklərimiz var. Lakin Kiyev bizi şantaj etməyə başladıqdan sonra bu təchizat dayandırıldı. Boru kəmərini açıb-açmayacağı Kiyevdən asılıdır”.

**Dünyanın ən böyük magistral neft boru kəməri sistemi...**

Qeyd edək ki, “Drujba” dünyanın ən böyük magistral neft boru kəməri sistemidir. Kəmər 1960-cı illərdə Sovet İttifaqı istehsal müəssisəsi olan “Lengazspetsstroy” tərəfindən Volqa-Ural neft və qaz yataqlarından nefti Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvü olan sosialist ölkələrinə: Macarıstan, Çexoslovakiya, Polşa və Şərqi Avropada yerləşən ADR-ə çatdırmaq üçün inşa edilmişdi. Boru kəməri marşrutu Almetyevskdən Bryanska, daha sonra Mozıra qədər uzanır və bundan sonra iki hissəyə bölünür: şimal hissəsi Belarus, Polşa, Almaniya, Latviya və Litvadan keçir, cənub hissəsi isə Ukrayna, Çexiya, Slovakiya, Macarıstan və Xorvatiyanı əhatə edir. Sovet İttifaqı dövründə boru kəmərinin sovet hissəsinin idarəetmə mərkəzi Lvov şəhəri idi. SSRİ-nin dağılmasından sonra Bryansk Rusiya hissəsinin idarəetmə mərkəzinə çevrilib.

Sistem 8900 km boru kəmərindən (o cümlədən Rusiyada 3900 km), 46 nasos stansiyasından və 38 ara nasos stansiyasından ibarətdir ki, onların çən parkları 1,5 milyon kubmetr neft saxlayır. Boru kəməri hər il MDB xaricinə 66,5 milyon ton, o cümlədən şimal qolu vasitəsilə 49,8 milyon ton neft ixrac edir.

**P.İSMAYILOV**

# Keçmiş prezident seçkilərdə qalib gəldi...

## Radevin partiyası Bolqarıstan parlamentində çoxluğu qazandı

Bolqarıstanda keçirilən parlament seçkilərinin yekun nəticələri açılanıb. Bolqarıstan Mərkəzi Seçki Komissiyasının elan etdiyi nəticələrə əsasən, parlament seçkilərində keçmiş prezident Rumen Radevin rəhbərlik etdiyi "Proqressiv Bolqarıstan" Partiyası qalib gəlib. Koalisiya səslərin 44,5-dən çoxunu toplayıb və parlamentdə 131 yer qazanıb.



### Səsvermənin nəticələri...

Bolqarıstan Mərkəzi Seçki Komissiyası parlament seçkilərində verilən səslərin yer aldığı bülletenlərin 100 faizinin də yoxlandığını bildirib. Hazırkı parlament çoxluğu olan "GERB"- SDS koalisiyası 13,387 faiz (433.755 səs) ilə ikinci yeri tutub, "Dəyişikliklərə Davam Et - Demokratik Bolqarıstan" partiyası isə 12,618 faiz (408.845) səs ilə üçüncü yeri tutub. Hüquqlar və Azadlıqlar Uğrunda Hərəkat (HHH) dördüncü yerdə 7,12 faiz və ya 230.693 səslə dördüncü, "Dirçəliş" Partiyası isə 4,257 faiz və ya 137.940 səslə beşinci olub. 50.700-dən çox seçici heç bir partiyanı dəstəkləməyib.

Xaricdəki seçki məntəqələrində alınan səslər də tam şəkildə emal olunub. "Proqressiv Bolqarıstan" səslərin 38,038 faizinə sahib çıxıb. "Dəyişikliklərə Davam Et - Demokratik Bolqarıstan" partiyası 22,843 faiz ilə ikinci, Hüquqlar və Azadlıqlar Uğrunda Hərəkat isə 8,498 faiz ilə üçüncü yerdədir. Xaricdəki vətəndaşların yalnız 4,7 faizi "GERB"-SDS koalisiyasını dəstəkləyib. Beləliklə, seçki nəticələrinə görə, "Proqressiv Bolqarıstan" parlamentdə 131, "GERB-SDS" 39, "Demokratik Bolqarıstan" 37, "Hüquqlar və Azadlıqlar Uğrunda Hərəkat" 20 və "Dirçəliş" isə 13 yer qazanıb.

### Yeni "Orban" gəlir?

Radev jurnalistlərə açıqlamasında bildirib ki, "Bu, ümidin inamsızlıq üzərində qələbəsidir. Bu, azadlığın qorxu üzərində qələbəsidir. Və nəhayət, bu, istəsəniz, əxlaqın qələbəsidir".

Radev yanvar ayının ortalarında Bolqarıstanda iqtisadi siyasət və korrupsiya ilə bağlı başlayan kütləvi etirazlar fonunda istefa verib. O, ölkəyə 2017-ci ildən rəhbərlik edirdi, 2021-ci ildə isə yenidən prezident seçilib. Bir ay əvvəl Rosen Jelyazkov Baş nazir vəzifəsindən istefa verib.

Səsvermədən sonra Radev Rusiya ilə münasibətlər qurmaq niyyətində olduğunu açıqlayıb. Kreml isə bildirib ki, Rusiya keçmiş Bolqarıstan prezidentinin Moskva ilə dialoq istəyini dəstəkləyir.

Avropa Parlamentinin üzvü Valeri Hajer "Financial Times" qəzetinə bildirib ki, Radev NATO-da Rusiya üçün "Troya atı"dır. Lakin naşr qeyd edib ki, yerli analitiklər bolqarıstanlı siyasətçinin Macarıstanın Baş naziri vəzifəsindən istefa verən ikinci Viktor Orbana çevrilə biləcəyinə şübhə ilə yanaşırlar.

Avropa Komissiyasının prezidenti Ursula Fon der Leyen də Radevi qələbə münasibətilə təbrik edib. "Bolqarıstanın və Avropanın çiçəklənməsi və təhlükəsizliyi üçün birlikdə işləməyi səbirsizliklə gözləyirəm", - deyə o, sosial mediada yazıb.

### Radev Azərbaycana 2 dəfə səfər edib...

Rumen Radevin prezidentliyi dövründə Azərbaycan - Bolqarıstan əlaqələri də yüksələn xəttlə inkişaf kedib. Radev prezident olduğu dövrdə iki dəfə Azərbaycana səfər edib. İlk səfər 12-14 oktyabr 2017-ci ildə baş tutub. 2024-cü ilin mayında isə Bolqarıstan prezidenti Bakıya rəsmi səfər edib. Səfər çərçivəsində iki ölkə arasında "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə" imzalanıb. Bundan başqa, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Bulgaria Air" Səhmdar Cəmiyyəti arasında kod paylaşma Sazişi", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Bolqarıstan Respublikasının İnnovasiya və İnkişaf Nazirliyi arasında texnologi innovasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Asarel Investment" arasında Anlaşma Memorandumu" da imzalanıb.

Həmin dövrdə Prezident İlham Əliyev də Bolqarıstana səfər edib. 30 sentyabr 2022-ci ilə təsadüf edən rəsmi səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu ölkənin aparıcı biznes dairələrinin nümayəndələri ilə görüşüb. Bolqarıstanın aparıcı biznes dairələrinin nümayəndələri tərəfindən Azərbaycan Prezidentinə avtomobil, qida, enerji, peyk, pilotsuz uçuş aparatları, kommunikasiya, rəqəmsal inkişaf, İKT, tibb, kimya sənayesi ilə bağlı olan layihələr barədə təqdimatlar edilib. Görüşdə bolqarıstanlı iş adamlarına Azərbaycandakı investisiya imkanları və biznes mühiti barədə də ətraflı məlumat verilib.

2023-cü ilin 10 dekabrında prezidentlər Serbiya-Bolqarıstan qaz interkonnektorunun açılışında iştirak ediblər. Qeyd edək ki, Bolqarıstan Azərbaycandan təbii qaz idxal edən ölkələrdəndir. Bolqarıstana təbii qaz ixracı rəsmi olaraq 31 dekabr 2020-ci ildə start götürüb. Bu tarixdən etibarən Azərbaycan qazı Bolqarıstana (əvvəlcə Yunanıstan üzərindən) çatdırılmağa başlanıb. 2022-ci ildən sonra (xüsusilə Greece-Bulgaria Interconnector istifadəyə verilondən sonra) qaz tədarükü daha da artıb. Artıq ixrac həcmi sürətlə yüksəlib və Bolqarıstan üçün əsas enerji mənbələrindən birinə çevrilib.

### Hərbi pilotluqdan prezidentliyə...

Rumen Radev 18 iyun 1963-cü ildə Bolqarıstanın cənubundakı Dimitrovqrad şəhərində anadan olub. O, 1987-ci ildə Ali Hərbi Hava Qüvvələri Məktəbini bitirib. 1992-ci ildə Dolna Mitropoliyadakı Georgi Benkovski Hərbi Akademiyasını, ABŞ-ın Alabama ştatındakı Maksvell Hərbi Hava Qüvvələri Bazasındakı Eskadrilya Zabitləri Məktəbini və 1996-cı ildə Sofiyadakı Georgi Rakovski Hərbi Akademiyasını bitirib.

2000-ci ildə Rakovski Akademiyasından hərbi elmlər doktoru dərəcəsi alıb. 2003-cü ildə Alabamadakı Hava Hərbi Kollecindən strateji tədqiqatlar üzrə magistr dərəcəsi alıb. Rumen Radev birinci dərəcəli pilotdur. O, L-29 və L-39 döyüş təlim təyyarələrini, MiG-15 və MiG-17 qırıcı təyyarələrini idarə etməyə başlayıb. Daha sonra F-15, F-16, F/A-18, MiG-21 və MiG-29 qırıcı və qırıcı-bombardmançı təyyarələrini mənimsəyib, 1400 uçuş saatı qeydə alıb.

1987-ci ildən Hərbi Hava Qüvvələrində xidmət edib. 2009-cu ildən 2014-cü ilə qədər Bolqarıstan Hərbi Hava Qüvvələrinin komandan müavini vəzifəsində çalışıb. 2014-cü ildə general-mayor rütbəsinə yüksəlib və Hərbi Hava Qüvvələrinin komandanı təyin edilib. 2016-cı ilin avqust ayında o, Bolqarıstan hava məkanının birgə qorunması haqqında Polşa ilə bağlanmış müqaviləyə etiraz olaraq Hərbi Hava Qüvvələri Komandanı vəzifəsindən istefa verib. İstefasından sonra müxalifətdəki Bolqarıstan Sosialist Partiyasının (BSP) dəstəyi ilə Rumen Radev prezidentliyə namizəd kimi irəli sürülüb. Onun seçki platformasının əsas məqamları korrupsiya, işsizlik və qanunsuz miqrasiya ilə mübarizə idi. Radev Avropa İttifaqının (Aİ) təşkilata üzv dövlətlərdə qaçqınlar üçün kvota ayırmasına qarşı çıxıb. O, Rusiya ilə münasibətləri yaxşılaşdırmaq və Bolqarıstanın xarici siyasətini milli maraqlara daha çox diqqət yetirməyə yönəltmək niyyətində olduğunu bildirib. 6 noyabr 2016-cı il tarixində keçirilən prezident seçkilərinin birinci turunda o, ən çox səs (25,44 faiz) toplayıb. 13 noyabr tarixində keçirilən ikinci turda isə mərkəz-sağçı Bolqarıstanın Avropa İnkişafı Uğrunda Vətəndaşlar (GERB) təşkilatının namizədi Tsetska Tsaçevanı 59,37 faiz səslə məğlub edib. Radev hərbi karyerası olan ilk Bolqarıstan prezidenti sayılır. 21 noyabr 2021-ci ildə müasir Bolqarıstan tarixində ilk dəfə ikinci müddətə prezident seçilib. 2025-ci ilin may ayında Radev ölkənin avrozonaya daxil olması ilə bağlı referendum keçirilməsini təklif etdi - lakin parlament təşəbbüsü dəstəkləmədi. Bolqarıstan 1 yanvar 2026-cı ildə avrozonaya qoşulu.

2021-ci ildən bəri davam edən siyasi böhran fonunda (2026-cı ilin əvvəlinə qədər 7 parlament seçkisi keçirilmişdi), Radev seçicilərin əksəriyyətinin etibar etdiyi yeganə siyasi fiqur olaraq qaldı. 2025-ci ilin dekabrında əvvəlki hökumət istefa verdi. 2026-cı ilin yanvar ayında Radev vəzifəsindən istefa vermək və 19 aprelə təyin olunmuş parlament seçkilərində iştirak etmək qərarını açıqladı. O, ingilis, alman və rus dillərində sərbəst danışır.

***SADİQ***

# Vicdan əzab verərmi?

## Fyodor Dostoyevskinin "Cinayət və cəza" romanı haqqında

Yuxulu, tənbəl Qonçarovun qırxı adlayandan sonra "Pallada" adlı freqatda təqribən iki il yarım sürən dünya səyahətinə çıxdığı günlərin birində gəmi güclü fırtınaya düşür. Matroslardan biri onu başını kayutdan çıxarıb, okeanda su dağları əmələ gətirən, gəminin sağ-soluna sudan uca hasarlar, qalın divarlar çəkən azman dalğaların kükrəyişinə şimşək işığında baxmağa çağırır. Romantik mənzərəyə bir anlıq göz yetirən yazıçı dilimizə çevrilində "nizamsızlıq, qaydasızlıq, özbaşınalıq, iğtişaş, qarışıqlıq" kimi bənzər mənalar verən "besporyadok" kəlməsini işlədib, dəli təbiətin sərsəm oyununa girməmək üçün gəmidəki ən etibarlı yerə - kapitanın kayutuna çəkilir...

***

Qonçarov kimi Dostoyevski də xaosun, anarxiyanın düşməniydi. Əgər Qonçarov kainata vəlvələ salan Şopenhauer sayağı iradə qasırğalarının, Yer adlı kosmik gəmini çalxalayıb-çaxnaşdıran ehtiras tufanlarının əlindən öz çanağının altına, ərincək gövdəsinin içinə, mürgülü vücudunun təkadamlıq kayutuna sığınırdısa, Dostoyevskidən ötrü xaos da, anarxiya da insan oğlunun məhşər günü üzərində qəti qələbə çalmalı olduğu Dəccal qoşunu, Şeytan ordusuydu. Xaosdan, anarxiyadan törəmə nihilizm adlı şübhəçi, inkarçı təlimə qarşı Qonçarov asketik tənhalığı, mənəvi sükunəti, Dostoyevski xristian qardaşlığını, ilahi coşqunu qoyurdu - Bulqakovun təbirinə uyğun bir dillə desək, birincinin ruhu alatoran dinclik hücrəsinə, ikincinin könlü parlaq işıq sarayına can atırdı. Hərçənd Dostoyevskinin qardaşlıq sarayı da günəşin nurundan daha çox solğun elektrik lampalarıyla işıqlandırılıb.

Dostoyevski inama şübhələrin ilan boğazı kimi dar keçidindən, Şeytanın labirintindən keçib gəlmişdi, ona görə də Tanrıya, dinə, İsa Məsihin ilahi mənşəyinə münasibətdə hansısa şübhəni, inkarı, inamsızlığı qətiyyətlə rədd eləyirdi, haqqın varlığı mövzusunda bircə arpa dəni boyda şəkkə düşərsə, böyük əzablar bahasına yetişdiyi dərgahdan qovulacağından qorxurdu. O dərəcədə qorxurdu ki, ona hətta Tolstoyun inamı da yarımçıq, yetərsiz görünürdü. Bu baxımdan dövrünün növbənöv qərbçiləri, liberalları, sosialistləri, nihilistləri, hətta katoliklər belə ona düşmən cəbhədə dururdular. Dostoyevski onlarla mübarizəni mömin pravoslav kimi özünün müqəddəs missiyası, keçmiş günahlarını yumaq üçün cihad sanırdı. Ancaq Məsihin adından apardığı amansız savaşında nihilistlərə qarşı barışmaz mövqe tutsa da, Dostoyevski rus ədəbiyyatında individual fəlsəfi nihilizmin "banisi" Bazarovu bəzən tragik, bəzən ironik, bəzən də sarkastik planda qələmə verib cəzalandırdığı tipajlarına qatmırdı. O, Turgenevin kosmik xaosun dumanlığında, təsadüflər girdabında mütləq azadlığa can atan, ideali üçün darıxdığına görə yerə-göyə sığmayan davakar qəhrəmanını yüksək qiymətləndirir, faciəli fiqur kimi xarakterizə elədiyi Bazarovun insanlıq uğrunda fədakarlığa, qəhrəmanlığa hazır narahat qəlbinə saygı duyurdu.

Hər bir fəlsəfi nəzəriyyənin əsli olduğu kimi saxtası, qondarması, əldəqayırması da var; Dostoyevskinin sonralar da (əsasən "Şeytanlar" romanında) obrazlarını yaradacağı nihilist təlxəklər, anarxist qatillər, İblisin hər bir əmrinə müntəzir allahsızlar məhz bu sayaq tipajlar - mənsubu sayıldıqları fəlsəfi təlimlərin orijinalından, mahiyyətindən xəbərsiz ikinci əl istifadəçiləri, insanlığa xidmət naminə yaradılmış nəzəriyyələri təhrifə uğradıb insanların qətli üçün legitim vasitəyə çevirən qan həvəsləri, xeyirin ixtiralarını şərə satan şeytan nökərləridir.

Ateizm də özlüyündə humanist fəlsəfi cərəyandır (mən Didronun, Feyerbaxın, Axundovun, Çexovun, Sartrın, Kamünün ateizmindən danışıram), dinlərdən miras qalma nə qədər mövhumatdan, xurafatdan qurtulmaqda bəşəriyyətə kömək olub, yol göstərib. Di gəl, kommunistlər kimi ateizmin özünü də dinə, mövhumata, xurafata çevirəndə dindar kütlə yalnızca əl dəyişir, yoxluğu varlıq, Şeytanı Allah elan eləyib heçliyin, heçnəliyin səcdəsinə durur. Nihilizm sözünün kökü "nihil" də elə latınca "heçnə" deməkdir.

***

On doqquzuncu əsrin yeddinci onilliyində nihilizm mövzusu rus ədəbiyyatı zəminində bütün aktual mövzuları kənara itələyib lap ön plana keçmişdi. Yazıçılar bir-birinin ardınca səhnəyə nihilist obrazlar çıxarmağa başlamışdılar: əvvəlcə Turgenev, sonra Qonçarov, sonra da Dostoyevski... "Cinayət və cəza"nın müəllifi üçün bu, hələ başlanğıc idi (əlbəttə, əvvəlki əsərlərində Raskolnikovun da, bu tipli başqa qəhrəmanlarının da əcdadlarını tapmaq olar), qarşıda hələ neçə-neçə canına cin müsəllət olmuş kişi, qadın surətləri yaradacaqdı.

1866-cı ildə işıq üzü görmüş "Cinayət və cəza" romanının mövzusunu, süjetini müəllif bundan neçə il qabaq - hələ sürgündəykən düşünüb tapmışdı. Ona qədər yazıçı əsasən sosial-psixoloji yönümlü roman-povestləriylə tanınırdı, bununla belə həmin əsərlərdən Dostoyevski yaradıcılığının yetkin dövrünə gələn cığırları tapmaq elə də çətin deyil. Bu romana qələm çalmağa başlayandan ta ömrünün sonunacan keçən on beş il ərzində Fyodor Mixayloviç onu indi durduğu mərtəbəyə qaldıran beş möhtəşəm roman yazdı, beş möhürlə adını dünya ədəbiyyatının yaddaşına əbədilik həkk elədi. "Cinayət və cəza" həmin qızıl beşliyin ilk kitabıdır, çoxları bu romanı yazıçının ən uğurlu kəşfi, şah əsəri sayır. Xəmsədə təmsil olunan "İdiot" (ikinci kitab), "Karamazov qardaşları" (beşinci-sonuncu kitab) romanları haqqında əvvəlki illərdə geniş danışmışıq.

Beləliklə, "Cinayət və cəza" romanı Dostoyevski yaradıcılığının həm ideyaməzmun, həm də forma-üslub baxımından yeni keyfiyyət qazandığı yekun mərhələsinə - mahiyyət etibarıyla fəlsəfi-mistik-idealist, janr etibarıyla fəlsəfi-psixoloji mərhələyə keçidin başlanğıcıdır. Müəllif özü məktublarının birində bu əsərin janrını "bir cinayətin psixoloji hesabatı" kimi xarakterizə eləmişdi. Romanı fəlsəfi detektiv sayanlar da var, ancaq istər hesabat, istərsə də detektiv təyinatı kitabın dərinliyinə işıq salmağa yetmir. Əslində, roman ənənəvi mənada detektiv də sayıla bilməz, çünki elə birinci bölümün sonundaca ölən də, öldürən də oxucuya bəllidir, hər şey onun gözü qarşısında cərəyan eləyir.

***

Əsər altı hissə, bir epiloqdan ibarətdir: birinci hissənin sonunda Raskolnikov sələmçi qarını, üstəlik onun cinayətin üstünə çıxan bacısını öldürür, altıncı hissənin sonunda günahını boynuna alır. İnsanlığa nifrət bəsləyən kinli tələbənin bütün qəziyyəsi - saxta təntənəsi də, saxta olmayan faciəsi də bu aralıqda baş verir. Müəllif əvvəlcə səni qatil qəhrəmanının etirafı, tövbəsi kimi, yəni birinci şəxsin dilindən qələmə almağı nəzərdə tutmuş, hətta həmin üslubda bir xeyli yazmışdı da. Sonra nədənsə bu forma onun fikirlərinə dar gəlmişdi, yazdıqlarını yandırıb, indi əlimizdə olan versiyanı ərsəyə gətirmişdi. Kitabın adını da asanlıqla tapmamışdı, son varianta qədər əsərə bir neçə başlıq seçib sonra qaralamışdı.

Fəqət romanın bu kitabdan təqribən otuz il əvvəl - müəllifin yeniyetmə çağlarında yazılmış proloqu da var. Söhbət Balzakın "Qorio ata" romanından gedir. Həmin əsərin gənc personajı Rastinyak bu romanın onunla aşağı-yuxarı yaşıd baş qəhrəmanı Raskolnikovun sələfidir, hətta adlarının ilk üç səsi də eynidir. Balzak yaradıcılığının Dostoyevskiyə böyük təsir göstərdiyi bəlli faktdır, əvvəllər yığcam da olsa bu haqda danışmışıq, hərçənd bənzər problemlərin həllinə bu iki dahinin yanaşmasında ciddi, prinsipial fərqlər də var. Həmin fərqlər iki parlaq obrazın müqayisəsində də özünü göstərir: hər ikisi hüquq təhsili alan yoxsul, müflis tələbədir (Raskolnikov artıq qovulub); hər ikisinin uzaq əyalətdə yaşayan, onların yoluna göz dikmiş, qəpik-quruşunu həvəslə onlara göndərən anası, bacısı var; həmin ana-bacılar hər iki gəncə böyük ümid bəsləyirlər desək azdır, onlara müqəddəs varlıq kimi, büt kimi etiqad eləyirlər; hər ikisi məsum, cəfakeş anasından aldığı məktubu Məryəm Ananın haq dünyasından gələn sədası kimi dinləyir - bəli, oxumur, məhz dinləyir. O məktublarda verilən tövsiyələrdən yayınmaq - birinə tez, birinə gec - hər ikisinə baha başa gəlir.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Xatirələrdən gerçəkliyə dönüş

## Ağdamda yeni başlanğıclar...







Uzun illər boyu kimsəsiz qalan Ağdam küçələri bu gün yenidən nəfəs alır. Dağıntılar arasında həyatın cücərməsi bir zamanlar yalnız xatirələrdə yaşayan səslərin - uşaq gülüşlərinin, həyət söhbətlərinin, bayram təlaşının gerçəkliyə çevrilməsi deməkdir. Bu da Ağdamın taleyində yeni bir mərhələnin başlandığını göstərir.

İnsanların doğma yurdlarına qayıdışı yalnız fiziki bərpa prosesi ilə məhdudlaşmır. Eyni zamanda, mənəvi dirçəlişin, milli ruhun yenidən alovlanmasının bariz nümunəsinə çevrilir. Bu prosesdə hər bir fərdin hekayəsi bütöv bir xalqın iradəsinin, səbrinin və inamının canlı sübutu kimi ortaya çıxır.

**Bəşəriyyətə qarşı ən dəhşətli cinayət...**

1993-cü il iyulun 23-də Ağdam şəhəri də daxil olmaqla, rayonun böyük hissəsi ermənilər tərəfindən işğal edilmişdi. Ermənilərin Azərbaycanın Qarabağ bölgəsini işğal etmək məqsədi ilə 1988-ci ilin fevralından başladığı müharibəyə ilk cəlb olunan rayonlardan biri məhz Ağdam oldu. 1993-cü il iyul ayının 23-də isə Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində Ağdam şəhəri işğal olundu. Həmin hücum nəticəsində rayonun 1094 kvadratkilometrlik ərazisinin 882 kvadratkilometri qəsb edildi, 122 kənd, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey yandırılıb tamamilə məhv edildi. Ermənilər uşaq və böyüyə, qadın və kişiyə fərq qoymadan insanları vəhşicəsinə qətlə yetirərək bəşəriyyətə qarşı ən dəhşətli cinayət törətdilər.

**Ağdam bir güllə atılmadan azad edildi**

27 il davam edən işğala 20 noyabr 2020-ci ildə son qoyuldu. Həmin il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan ağır məğlubiyyətə uğradı və kapitulyasiya aktına imza atmağa məcbur oldu. Döyüş meydanında rüsvayçı məğlubiyyətə düçar olan Ermənistanın imzaladığı kapitulyasiya aktına əsasən, noyabrın 20-də Ağdam rayonu Müzəffər Ali Baş Komandanın İkinci Qarabağ müharibəsində yürütdüyü hərbi-siyasi uğurun davamı olaraq bir güllə atılmadan azad edildi və düşmən rayondan çıxmağa məcbur edildi.



**Daha 92 ailə**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Dünən növbəti köç karvanı Ağdam şəhərinə yola salınıb. Bu mərhələdə Ağdam şəhərinə 92 ailə - 332 nəfər köçürülüb.

Ağdama atılan hər addım, tikilən hər ev, əkilən hər ağac bir mesaj verir: zaman nə qədər keçsə də, torpaq öz sahiblərini unutmur. Nəhayət, həmin sahiblər qayıdanda keçmişlə gələcəyin kəsişdiyi nöqtədə yeni bir həyatın təməli qoyulur. Bu həyat isə artıq yalnız xatirələr üzərində deyil, real və davamlı bir gələcək üzərində qurulur...

*Yeganə BAYRAMOVA*

# Planetimizi sevək!

*Yeganə BAYRAMOVA*



## Yer kürəsi bizə əmanətdir...

Yer yalnız insanların deyil, milyonlarla canlı növünün ortaq evidir. Ona görə də ekosistemin tarazlığının pozulması təkcə təbiətə deyil, insan həyatına da birbaşa təsir göstərir. Məsələn, kimyəvi tullantılar, texniki əşyalar, salınmış şəhərciklər, tikilmiş binalar, infrastrukturlar və daha nələr-nələr... Bütün bunlar tədricən dünyanın nəfəs alan "ağciyərlərinin" məhvinə gətirib çıxarıb. Bu gün qlobal problemə çevrilən iqlim dəyişikliyi, qlobal istiləşmə, suyun tükənməsi və s. kimi ekoloji problemlər dünyadakı bu dəyişmələrin acı nəticəsi hesab olunur.

Yaşamaq üçün vacib olan dünyamızın qorunması isə hər birimizin borcu və məsuliyyətidir. Məhz bu səbəbdən aprelin 22-si Ümumdünya Yer Günü olaraq qeyd edilir. Bu əlamətdar gün ətraf mühitin qorunmasına yönəlmiş beynəlxalq tədbirdir. Hazırda dünyanın 192 ölkəsində Yer Günü fərqli aksiyalarla yadda qalır - konfranslar, sərgilər, böyük şəhərlərin magistral yollarında nəqliyyatın hərəkətinin məhdudlaşdırılması, abadlıq, təmizlik işlərinin aparılması, ağac əkilməsi...

**Tarixə nəzər...**

Yer Gününün tarixi XX əsrin 70-ci illərinə əsaslanır. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) 50-dən çox üzv dövlətinin müəllifliyi ilə 2009-cu ildə BMT-nin Ümumi Məclisinin 63-cü iclasına əsasən təsis olunub və 2010-cu ildən etibarən qeyd olunmağa başlanıb. İlk zamanlar Yer Günü bir çox ölkədə günlərin bərabərləşməsi, yazın (Şimal yarımkürəsində) və ya payızın (Cənub yarımkürəsində) başladığı zaman qeyd olunurdu.

**"Sülh zəngi"...**

Ənənəyə görə, hər il Yer Günündə ölkələrin böyük əksəriyyətində dinc həyatın, bütün xalqların dostluğunun və həmrəyliyinin simvolu olan "Sülh zəngi" birdəqiqəlik çalınır. Bu, mədəniyyəti və bəşəriyyətin ən yaxşı nailiyyətlərini qorumaq naminə fəaliyyətə çağırışdır. Həmin mərasimin mənası ondan ibarətdir ki, bu dəqiqə ərzində insanlar planeti necə qoruyub saxlamaq, ondakı həyatı necə yaxşılaşdırmaq, özlərini sakin və Yer kürəsinin bir hissəsi kimi hiss etmək barədə düşünürlər.

İlk "Sülh zəngi" 1954-cü ildə BMT-nin qərargahı Nyu-Yorkda quraşdırılmışdı. 1996-cı ildə belə bir sülh zəngi BMT-də, eləcə də Avstriyanın paytaxtı Vyana şəhərində quraşdırıldı. Daha sonra isə Yaponiyada, Almaniyanın böyük şəhərlərində (1989), Polşa, Türkiyə (1989), Meksika (1990), Avstraliya (1992), Monqolustan (1993), Filippin (1994), Kanada (1996), Braziliya (1997), Argentina (1998), Ekvador (1999), Özbəkistan (2003) və digər ölkələrdə quraşdırılıb.

**Günəş sisteminin üçüncü planeti**

Məlumdur ki, Yer kürəsinin öz oxu ətrafında hərəkəti 24 saata başa çatır. Bu dövr sutka adlanır. Yerin işıqlanan tərəfində gündüz olanda, əks tərəfdə gecə olur. Onların arasında isə səhər və axşam vaxtları müşahidə edilir. Yerin öz oxu ətrafında fırlanması müxtəlif ölkələrdə vaxt fərqlərinin yaranmasına səbəb olur. Dünyanın müxtəlif ərazilərində günün işıqlı və qaranlıq vaxtının müddəti eyni deyil. Ekvator boyunca il ərzində gündüz və gecənin uzunluqları bərabər olur. Qütblərə yaxın ərazilərdə isə işıqlı vaxtın müddəti yarım il qədər uzanır. Digər yarım il qədər isə Günəş görünmür.

Astronomlar müəyyən ediblər ki, bəşəriyyətin "evi" olan Yer kürəsi kainatın ucsuz-bucaqsız ənginliyinin bir zərrəsidir. İndiyədək kainatın heç bir yerində həyat aşkar olunmayıb. Ancaq Günəş sisteminin üçüncü planeti olan Yer kürəsində yaşayış üçün əlverişli şərait mövcuddur. Üstəlik, bu gözəl planetdə yaşamaq bizə sevinc gətirir, mövcudluğumuz üçün Yer kürəsi çox vacibdir. Ona görə planetimizi qorumaq hər birimizin üzərinə düşən mühüm vəzifələrdən biridir!

# Bir sərvət dəyərində...

## Qədim skripkalar niyə çox bahadır?

Ötən həftə Finlandiyanın "The Lahti Symphony" orkestrinin konsertində qiymətli bir skripkanın yerə düşməsi ilə bağlı insident geniş ajiotaj yaratdı və diqqəti nadir musiqi alətlərinin dəyərinə çəkdi.

AZƏRTAC xəbər verir ki, ifa zamanı dirijor Mettyu Hols Elina Vyahlyaya məxsus skripkaya təsadüfən toxunub və musiqi aləti səhnəyə düşüb. Usta Yarkko Niemi aləti tez bir zamanda bərpa edib və onun səsi tam qorunub saxlanılıb.

Artıq 20 ildən artıqdır ki, bu sahədə çalışan Yarkko Niemi bahalı skripkaların hazırlanması və bərpası üzrə ixtisaslaşıb. Onun sözlərinə görə, bu cür alətlərin dəyəri milyonlarla, hətta on milyonlarla avroya çata bilər. Qiymət bir neçə amillə müəyyən edilir: onun mənşəyi, ustanın adı, yaşı, vəziyyəti və istifadə tarixi.

Xüsusilə qiymətli olan alətlər XVII və XVIII əsrlərdə skripka istehsalının mərkəzi olan İtaliyanın Kremona şəhərində istehsal olunub. Ən məşhur skripka ustaları arasında Antonio Stradivari, Qvarneri ailəsi və Amati var. Təxminən 300 il tarixi olan skripkalar unikal hesab olunur. Onlar artıq istehsal olunmur və bu unikal musiqi alətlərinin dəyəri zamanla artır, bəzən bir neçə onillik ərzində qiymətləri ikiqat və ya üçqat qalxır.



Skripkaların hazırlandığı material da əhəmiyyətli rol oynayır. Ənənəvi olaraq, üst hissə küknardan, gövdə və boyun ağcaqayın ağacından, barmaq lövhəsi isə qara ağacdan hazırlanır. Köhnə ağac yüksək keyfiyyətli səsi təmin edir. Bundan əlavə, uzun ifa tarixinə malik alətlər qiymətləndirilir - peşəkar musiqiçilər tərəfindən müntəzəm olaraq ifa edilən skripkalar ən yaxşı akustik keyfiyyətlərini qoruyub saxlayır.

Nieminin sözlərinə görə, Finlandiya XVII əsrə aid alətlər də daxil olmaqla, heyrətamiz dərəcədə çox sayda qiymətli skripka ilə öyünür. Əvvəllər bu cür alətlər daha çox ailələrə və ya fondlara məxsus idi, lakin son illərdə investorlar onlara getdikcə daha çox maraq göstərirlər. Onlar skripkaları alır və aparıcı musiqiçilərə borc verirlər ki, bu da alətləri işlək vəziyyətdə saxlayır və bazar dəyərini artırır.

Hətta kiçik zədə dəydikdə belə, skripkanın qiyməti əhəmiyyətli dərəcədə azala bilər. Məsələn, korpusdakı çat onun qiymətini orijinal dəyərinin yarısına və ya hətta üçdəbirinə qədər ucuzlaşdıra bilər. Elina Vyahlyayanın skripkasında zədə də kiçik olub. Burada söhbət təkcə perçiminin azacıq aralanmasından gedirdi və onu səliqə ilə düzəltmək mümkün olub.

Həmin alət XVIII əsrdə usta Covanni Battista Qvadanini tərəfindən hazırlanıb. Nieminin sözlərinə görə, skripkaçının bəxti gətirib: oxşar şəraitdə alət tamamilə parçalana bilərdi.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5225**
**Sifariş: 519**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova